Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

4
İYUL
2019-cu il
№ 116 (4014)

Qiyməti
40 qəpik

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# İRƏVAN ERMƏNİSTAN-İRAN ƏMƏKDAŞLIĞINA ABŞ-ın FƏRQLİ YANAŞMASINDAN DANIŞIR - ERMƏNİ TƏBLİĞATININ DAHA BİR «KƏŞFİ»...

səh. 4

Moskva Qarabağ məsələsində Bakıya yaxınlaşır, İrəvan region ölkələri arasında təklənir
səh. 9

Moskvada səfərdə olan Azərbaycan KİV rəhbərləri Ümumrusiya Dövlət Teleradio Şirkətinin rəhbərliyi ilə çox mühüm razılıq əldə etdi
səh. 3

Paşinyan qondarma "DQR" üçün oyuncaq prezident tapdı
səh. 7

UNESCO-nun 43-cü sessiyası xalq sənəti növlərimizin də Dünya İrs Siyahısına salınma yollarını açdı...
səh. 13

OPEC və qeyri-OPEC ölkələrinin son qərarı sabit neft qiymətinə zəmin yaradır
səh. 10

Azərbaycan tekstil mallarının ixrac coğrafiyasını genişləndirir - sırada Avropa ölkələri var
səh. 11

Azərbaycan Avropa Oyunlarını ənənəvi dünya idmanı turnirinə çevirməyə nail oldu
səh. 14

Azərbaycanda övladlığa verilmə mexanizmi dəyişdirilir
səh. 12



səh. 8

## Azərbaycanın təşəbbüsü ilə yaradılan OPEC+ formatının son qərarı neft bazarında canlanma yaratdı - qiymətlər yenidən yüksəlməyə başlayır





**Ermənistan addım-addım qanlı toqquşmalara gedir - Paşinyanı hakimiyyətə gətirib vurulanlar ona qarşı təşkilatlanır...**
səh. 6

**Ermənistanın Belarusla yaxınlaşma üçün xüsusi səyləri görünməyə başlayır - təcavüzkar ölkənin yeni planı**
səh. 7

**Rusiya TŞ-dən KTMT ölkələrində «rəngli inqilab» xəbərdarlığı - NATO-çular qərbyönümlüləri hakimiyyətə gətirməyə hazırlaşır**
səh. 5

səh. 2
**Əli Həsənov Gəncə hadisələrinin ildönümündə bu qanlı olayın xaricdən idarə olunduğuna dair konkret fakt göstərdi**



səh. 4
**İranın təcavüzkar Ermənistanla hərbi əməkdaşlığına dair yeni faktlar ortaya çıxdı**



səh. 5
**Təxribatçı "İŞİD videosunda" Azərbaycanın adını məkrli niyyətlə hallandıranlar kimlərdir...**



səh. 10
**Azərbaycanda əfqan qaçqınlarının sayı artır - yeni təzahür...**



səh. 11
**Azərbaycan tezliklə həm də dərman ixracatçısına çevriləcək - ölkə iqtisadiyyatının yeni artım mənbəyi...**





# Azərbaycan Prezidenti ABŞ dövlət başçısını Müstəqillik Günü münasibətilə təbrik etdi

**Prezident İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampa təbrik məktubu göndərib.**

Təbrikdə deyilir: "Hörmətli cənab Prezident, Amerika Birləşmiş Ştatlarının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatlarını dostluq və əməkdaşlıq münasibətləri birləşdirir. Qarşılıqlı maraq doğuran bir sıra sahələrdə əməkdaşlığımız strateji tərəfdaşlıq xarakteri daşıyır.

Biz beynəlxalq təhlükəsizliyin təmin edilməsi, terrorizmə qarşı mübarizə məsələlərində çoxtərəfli qaydada fəaliyyətimizi bundan sonra da qətiyyətlə davam etdirmək əzmindəyik. Təşəbbüsçüsü olduğumuz və müvəffəqiyyətlə gerçəkləşdirdiyimiz Cənub Qaz Dəhlizi layihəsi isə Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsinə mühüm töhfədir. Enerji mənbələrinin və nəqlinin şaxələndirilməsinə xidmət edən layihələrimizin Birləşmiş Ştatlar tərəfindən dəstəklənməsi bizim üçün çox əhəmiyyətlidir.

Bütün bunlarla yanaşı, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin hələ də həll olunmaması xalqımızın qarşılaşdığı ən ağrılı problem olaraq qalmaqdadır. Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü nəticəsində əzəli Azərbaycan torpaqları olan Dağlıq Qarabağ və ətrafındakı 7 rayon işğal olunmuş, bir milyondan çox soydaşımız doğma yurd-yuvasından didərgin düşmüşdür. Münaqişə beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tələblərinə, Helsinki Yekun Aktının müddəalarına əsasən ölkəmizin ərazi bütövlüyü çərçivəsində, sülh yolu ilə və ədalətli şəkildə həll olunmalıdır. Biz bu işdə ATƏT-in Minsk Qrupunun həmsədri kimi ABŞ-ın ardıcıl və qətiyyətli mövqeyinə və şəxsən Sizin, cənab Prezident, səylərinizə böyük ümidlər bəsləyirik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Amerika xalqına daim sülh və rifah diləyirəm".

**Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov ötən il Gəncədə baş vermiş terror aktlarının ildönümü ilə bağlı KİV-lərə xüsusi açıqlama verib. Baki-xeber.com AZƏRTAC-a istinadən açıqlamanı təqdim edir.**

# Əli Həsənov Gəncə hadisələrinin ildönümündə bu qanlı olayın xaricdən idarə olunduğuna dair konkret fakt göstərdi

*"Foreign Policy" nəşri teraktdan bir ay əvvəl "Gəncə keçidi"nin Qərb üçün əhəmiyyəti haqqında yazı dərc edərək...*

Açıqlamada deyilir: "Azərbaycan dövlətçiliyinə qarşı qəsd aktı kimi dəyərləndirilən Gəncə hadisələrindən bir il ötür. Keçən müddətə aparılmış istintaq tədbirləri nəticəsində ortaya çıxan faktlar bir daha təsdiqlədi ki, Gəncə hadisələri bəzi dövlətlərin radikal klerikal dairələrinin, separatçıların və ölkə daxilində siyasi fəaliyyət pərdəsi altında şəxsi ambisiyalarını həyat keçirmək istəyən qrupların dövlət və milli maraqlarımıza qarşı birgə məkrli təxribatı idi. Mediada, xüsusən sosial mediada geniş yayılmış məlumatlardan görünür ki, həmin qüvvələrin ötən il reallaşdırmağa çalışdıqları ssenarinin puç edildiyi, vətəndaşlarımızın dövlətçiliyin keşiyində durduğunu nümayiş etdirdiyi Gəncə hadisələrinin ildönümü ilə əlaqədar üzvlərinin əksəriyyətini Azərbaycanın keçmiş vətəndaşları təşkil edən, radikal islamçı qruplaşmalardan biri yenidən fəallaşıb.

Qruplaşmanın sosial şəbəkələrdəki səhifə və profillərində, habelə bəzi dövlətlərin klerikal dairələri tərəfindən idarə olunan saytlarda fəallaşması birmənalı olaraq ifrat dini radikallığın, fundamentalizmin dəstəklənməsi kimi dəyərləndirilə bilər.

Dini şüarlarla pərdələnən, təxribatçı, niyyəti dövlətlə xalq arasında inamsızlıq, mümkün olarsa düşmənçilik toxumları səpmək olan bəzi internet resurslarında Gəncədə törədilmiş terror aktının əsas personajı, Rusiya vətəndaşı Yunis Səfərovun Suriyada döyüşlərdə iştirakını təsdiqləyən kadrlar nümayiş etdirilir və onu əsl "qəhrəman" kimi populyarlaşdırmağa cəhdlər olunur, xanımının hadisədən dərhal sonra etdiyi müraciət təkrar-təkrar yayımlanır.

Təəssüf doğuran odur ki, özlərinin demokrat və dünyəvi dövlət tərəfdarı olduqlarını iddia edən bəzi müxalifət liderləri və fəalları da terroru təşviq edən belə bir kampaniyaya dəstək verir, ifrat ekstremizmi özünə ideologiya seçmiş xarici qruplaşmaların istifadə etdiyi şüarları təkrarlayır, bu səpkidə çağırışlar səsləndirir, ölkəmizin çoxəsrlik dini dözümlülük mühitini, tolerant imicini şübhə altına alırlar. Bir sözlə, demokratiya dəyərlərinə sadiq olduğunu iddia edən bu tipli müxalifətin əslində həmin dəyərlərə qənim kəsilənləri, radikalizmi, ifrat dini fundamentalizmi dəstəklədiyi göz önündədir. Belədirsə, həmin müxalifətə, görəsən, hansı Azərbaycan gərəkdir? Dünyanın inkişaf etmiş ölkələri sırasında yer alan, sabit, qüdrətli və demokratik Azərbaycan, yoxsa Sudan, Somali, Liviya, Suriya və s. ölkələr kimi amansız daxili savaşın, qanlı xaosun, faciəvi vətəndaş qarşıdurmasının və terror qruplaşamalarının tüğyan etdiyi poliqon? Bəlkə onlar Azərbaycanı orta əsrlərin qaranlıq dövrünə qaytarmaq, ölkəmizi şəriət qanunları ilə idarə olunan məkana çevirmək istəyirlər?

... İyul ayının 3-də axşam Gəncə Şəhər İcra Hakimiyyətinin başçısına qarşı sui-qəsd törədən birinin cinayətinin terror xarakteri, cinayəti törədənin xarici vətəndaş olduğu, Azərbaycan dövləti tərəfindən sanksiyalaşdırılmayan döyüş əməliyyatlarında iştirak etdiyi məlumdur.



Yerli və xarici mediada dərc olunmuş materiallarda, Y.Səfərovun həyat yoldaşının bir neçə dəfə yayımlanmış video müraciətlərində onun bu əməli şəxsi motivlərlə, qisas naminə və ya bəzilərinin iddia etdiyi kimi, "sosial zülmə" qarşı etiraz olaraq deyil, məhz xaricdə qanunsuz silahlı birləşmələrin tərkibində döyüşdüyü "ideallar" naminə, yeni Azərbaycanda "şəriət dövləti yaratmaq" üçün törətdiyi də bəlli olub. Gəncədə terakt baş verəndən dərhal sonra radikal dini fundamentalizmi təbliğ edən Facebook səhifələri və saytlar, habelə Vətənə xəyanət ittihamı ilə mühakimə edilmiş separatçılara bağlı kütləvi informasiya vasitələri Yunis Səfərovu yeni "Gəncəbasar qisasçısı", "qəhrəman" elan etməyə tələsdilər. Bu dəfə də onlara Avropadakı anti-Azərbaycan müxalifəti və onların rəhbərlik etdiyi internet kanallarından, orda yaşayan anti-milli ünsürlərdən kömək gəldi. Rusiya və digər xarici ölkələrdə separatçı kimi "ad-san qazanmış" çevrələr də cinayətkarı müdafiə komitəsini yaradıb xarici dövlət rəsmilərinə müraciət etdilər.

Xatırladım ki, bu teraktdan bir ay əvvəl, 2018-ci il mayın 28-də ABŞ-ın nüfuzlu "Foreign Policy" nəşri "Gəncə keçidi"nin Qərb üçün əhəmiyyəti haqqında yazı dərc edərək, baş verəcək təxribatlar haqda xəbərdarlıq edirdi. Bu gün terroru təbliğ edən radikalların və onların havadarlarının yenidən fəallaşması, Azərbaycana təhdidlər ünvanlamaları isə Gəncə hadisələrinin ildönümü ilə yanaşı, TANAP-ın istifadəyə veriləcəyi vaxta təsadüf edir.

Qəribə deyil ki, Azərbaycan dövləti və onun müstəqil siyasətinin əleyhinə son dövrlərdə Ermənistan, bəzi dövlətlərdəki klerikal dairələr, ekstremistlər, xarici ölkələrə qaçmış, sadəcə, pula və məişət rahatlığının təminatına can atan bəzi azərbaycanlılar tərəfindən aparılan təmərküzləşmiş, təhlükəli ideoloji təxribat bu günlərdə yenidən canlanıb.

Demokrat və dünyəvi olduqlarını vurğulayanlar mövqe və demokrat prinsipiallığı nümayiş etdirərək bu tipli anti-Azərbaycan dairələrini və onların ölkəmizdəki uzantılarını qınamaq əvəzinə terror aktlarına görə həbs olunmuş şəxsləri qəhrəmanlaşdırır, merkantil maraqların təminatı, yeni maliyyə imkanları əldə etmək naminə onları vicdan məhbusu elan edərək xüsusi siyahılara salır, azadlığa buraxılmalarına çalışırlar.

Yaxın Şərq və Şimali Afrikada son illərdə baş verən proseslər göstərdi ki, hər hansı cəmiyyətdə özünü "müxalifət" adlandıran qrup və kəsimlər terrorçunu, yaxud terrorçuları qəhrəman kimi təqdim etməyə, terroru mifləşdirməyə başladıqda cəmiyyət və dövlət belə təhlükəli fəsada qanun çərçivəsində sərt reaksiya verməzsə, hadisələr təhlükəli məcraya yönəlir, ideoloji təxribat vətəndaş müharibəsi, terrorun tüğyan etməsi ilə nəticələnir.

Dövlətin təhlükəsizliyi və milli mənafelər heç bir zaman, heç bir vəchlə və ya şərtlə müzakirə mövzularına çevrilməməlidir. Bəhs etdiyim dəyərlərə kiçik də olsa təhdid yaranarsa, hər bir azərbaycanlı vətəndaş mövqeyi, milli iradə ortaya qoymalıdır. Mövcud həssas vəziyyətdə cəmiyyətimiz qətiyyət və sayıqlıq, vətəndaşlarımız milli dövlətçilik naminə sıx birlik nümayiş etdirməlidir.

İctimai rəyə təsir imkanları olan ziyalılarımız daha düşünülmüş şəkildə və həssas davranaraq, konkret insanlara bəslənən münasibətlə Vətənin mənafeləri və dövlətin maraqlarını bir-birindən fərqləndirməlidir".

# Moskvada səfərdə olan Azərbaycan KİV rəhbərləri Ümumrusiya Dövlət Teleradio Şirkətinin rəhbərliyi ilə çox mühüm razılıq əldə etdi

## *Media rəhbərlərinin Moskva səfəri davam edir*

**Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) təşkilatçılığı ilə respublikanın aparıcı KİV təmsilçilərindən ibarət 12 nəfərlik nümayəndə heyətinin Rusiya Federasiyasının paytaxtı Moskva şəhərinə səfər proqramı davam edir.**

Nümayəndə heyətinin səfər çərçivəsində Rusiyanın jurnalist təşkilatları və aparıcı KİV-lərin redaksiyalarında görüşləri keçirilir.

Növbəti görüş Ümumrusiya Dövlət Teleradio Şirkətində keçirilib. Heyət üzvlərini Şirkətin xarici əlaqələr departamentinin rəhbəri Pyotr Fyodorov və onun müavini Aleksey Perevoşçikov qarşılayıb. KİVDF-nin icraçı direktoru, səfər qrupunun rəhbəri Vüqar Səfərli KİV təmsilçilərinin Moskvaya səfərinin məqsədi, həmçinin, Azərbaycanda KİV-in durumu və KİVDF-nin fəaliyyəti barədə məlumat verib. Vüqar Səfərli Rusiya-Azərbaycan media qurumlarının sıx təmaslarının qurulmasının hər iki ölkənin maraqlarına xidmət etdiyini vurğulayıb.

Pyotr Fyodorov qonaqları salamlayaraq, Azərbaycan KİV təmsilçilərinin Rusiya Federasiyasına səfərini, Rusiya KİV-ləri ilə əməkdaşlıq əlaqələrini möhkəmləndirmək təşəbbüslərini yüksək qiymətləndirdiyini bildirib.

Nümayəndə heyəti üzvləri Rusiyanın Dövlət Teleradio Şirkətinin xəbərlərində Azərbaycan barədə informasiyaların və ayrı-ayrı proqramlarında Azərbaycan barədə müzakirələrin daha effektiv olması üçün təkliflərini səsləndiriblər. Pyotr Fyodorov təklifləri qəbul etdiyini bildirib. Razılığa gəlinib ki, Şirkətin təşkil etdiyi proqramlarda Azərbaycan tərəfindən ekspertlərə istinadlar edilsin, onlarla əməkdaşlıq gücləndirilsin.

Nümayəndə heyətinin növbəti görüşü "Rossiya seqodnya" Beynəlxalq İnformasiya Agentliyində keçirilib. Azərbaycan KİV təmsilçiləri öncə Agentliyin iş şəraiti ilə tanış olublar. Daha sonra Agentliyin baş direktoru Dmitriy Kiselyovla görüş keçirilib. Kiselyov Azərbaycanın öz müstəqilliyini möhkəmləndirmək yolunda atdığı addımları diqqətlə müşahidə etdiklərini və bu yolda Prezident İlham Əliyevin yürütdüyü siyasəti təqdir etdiklərini diqqətə çatdırıb. O, Azərbaycanın regionda oynadığı rola, Rusiya ilə münasibətlərdə sərgilədiyi mövqeyə diqqət çəkərək, iki ölkənin münasibətlərinin daha da möhkəmlənməsində KİV-in də üzərinə mühüm məsuliyyət düşdüyünü, bu baxımdan Azərbaycan KİV təmsilçilərinin Rusiya Federasiyasına səfərini, Rusiya KİV-ləri ilə əməkdaşlıq əlaqələrini möhkəmləndirmək təşəbbüslərini yüksək qiymətləndirdiyini bildirib.

Səfər proqramı davam edir.

Məlumat üçün bildirək ki, nümayəndə heyətinin tərkibinə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli, "Xalq qəzeti"nin baş redaktoru, KİVDF Müşahidə şurasının sədri Həsən Həsənov, "Trend" İnformasiya Agentliyinin baş direktoru İlqar Hüseynov, "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev, Jurnalistlərin Həmkarlar İttifaqının sədri, Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli, "Bakı-Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev, "Bakinskiy Raboçiy" qəzetinin başredaktoru Rəhman Hacıyev, Azərbaycan Televiziya və Radio Verilişləri QSC-nin sədr müavini Rəşad Nəsirov, "AzərTAc" İnformasiya Agentliyinin redaksiya müdir müavini Əziz Məmmədov, "Novoye vremya" qəzetinin baş redaktoru Şakir Ağayev, "Kaspiy" qəzetinin baş redaktoru İlqar Hüseynov daxildir.









**İyunun 30-dan iyulun 2-dək Tehranda Avrasiya İqtisadi İttifaqının birgə komissiyasının iclası keçirilib. İclas Ermənistan baş nazirinin müavini Mqer Qriqoryanın sədrliyi ilə keçirilib. Tədbirdən sonra İranın energetika nazirinin müavini Humayun Ayeri və Mqer Qriqoryan elektrik enerjisinin verilməsi məsələlərini müzakirə ediblər.**

# İrəvan Ermənistan-İran əməkdaşlığına ABŞ-ın fərqli yanaşmasından danışır - erməni təbliğatının daha bir "kəşfi"...

## *Əli Orucov: "ABŞ öz milli maraqlarını heç vaxt güzəştə getməyib"*



Ermənistanın İrandakı səfiri Artaşes Tumanyan İranın energetika naziri Rza Ərdahaniyanla görüşüb və tərəflər Ermənistan-İran elektrik xəttinin çəkilməsi, qaz və elektrik enerjisinin mübadiləsi proqramını, Mehri SES-nin tikintisini və başqa iqtisadi əməkdaşlığı müzakirə ediblər. Tumanyan, həmçinin, İranın yollar və şəhərsalma naziri Mohammad İslami ilə görüşüb, nəqliyyat məsələlərini, o cümlədən, İranla sərhəddə yerləşən işğal olunmuş Azərbaycan torpaqlarının ərazisindən separatçı Dağlıq Qarabağ rejiminə nəqliyyat dəhlizindən səmərəli istifadə yollarını müzakirə ediblər. Hər iki ölkə perspektivdə Avrasiya İqtisadi İttifaqı çətiri altında azad ticarət əlaqələrinin imkanlarını geniş müzakirə ediblər.

Bununla belə, erməni mətbuatı yazır ki, guya ABŞ Ermənistanla İran arasında iqtisadi əlaqələrin genişləndirilməsinə qarşı deyil. Onlar bunu onunla əsaslandırırlar ki, mayın 7-də Ermənistan-ABŞ strateji dialoqunun ilk iclasından sonra ABŞ-ın İrəvandakı səfiri bu məsələyə aydınlıq gətirib. Səfir Linn Treysi deyib ki, onun ölkəsi Ermənistandan İranla ticarətin azaldılmasını xahiş etməyib. Guya səfir deyib ki, ticarət və təhlükəsizlik baxımından İran Ermənistan üçün çox vacibdir. ABŞ Ermənistanın vəziyyətini başa düşür və s.

ABŞ-ın İran-Ermənistan yaxınlaşmasına belə yanaşması barədə deyilənlər nə dərəcədə əsaslıdır?

**Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən AMİP funksioneri Əli Orucovun sözlərinə görə, ABŞ-ın Ermənistandakı səfirinin guya İranla Ermənistan arasındakı bütün sferalardakı mövcud əlaqələrin sanksiyalar altına düşməyəcəyi haqqında səsləndirdiyi fikirlər absurddur:** "Həqiqətən də ticarət və təhlükəsizlik baxımından İran Ermənistan üçün çox vacib ölkədir. Lakin siz də bilirsiniz ki, ABŞ öz milli maraqlarını heç vaxt güzəştə getməyib. Bu baxımdan İranla bağlı Ermənistana hər hansı güzəştin tətbiq olunması ağlabatan deyil. Rəsmi İrəvan da Vaşinqtona qarşı çıxmaq cəsarətində ola bilməz. Ermənistanın iqtisadiyyatı xarici dövlətlərdən, Rusiya və İrandan, eləcə də beynəlxalq erməni diasporunun ianə və yardımlarından asılıdır. Bunun da başlıca səbəbi həmin dövlətin işğalçılıq və ekspansiya siyasəti ilə bağlıdır. Yəni heç bir təbii və digər resurslara malik olmayan Ermənistan həm transmilli iqtisadi-kommunikasiya layihələrindən, həm də xarici sərmayədarların investisiyalarından kənarda qalıb. Bunlar isə milyardlarla dönərli valyuta itkisi deməkdir. Blokada da qalması isə Ermənistanı beynəlxalq aləmdən təcrid edib. Ölkənin çox cüzi sərvətləri və daxil olan pulların da böyük kütləsi korrupsiya mənimsəmələrinə, ordunun saxlanmasına sərf olunur. Ermənistan nə Qərb üçün, nə də region ölkələri üçün iqtisadi cəhətdən cəlbedici ölkə deyil. Vaxtı çatanda Ermənistanın İranla olan nəfəsliyi də qapadılacaq. O zaman işğalçı ölkənin durumu dözülməz olacaq. Hələlik isə Ermənistanın rəhbərliyi gah müharibə xofu, gah yalançı vədlər və ümidlər verməklə cəmiyyəti idarə etməyə çalışmaqdadır. Bu da uzun sürməyəcək".

> *"Bu baxımdan İranla bağlı Ermənistana hər hansı güzəştin tətbiq olunması ağlabatan deyil"*

***Vidadi ORDAHALLI***

---

**İyunun 25-30-da Moskvaətrafı Kubinka qəsəbəsində keçirilən "Ordu" beynəlxalq hərbi-texniki forumunda Ermənistan İranla birgə istehsal edilən "Naim-802" radiolokasiya stansiyasını (RLS) nümayiş etdirib. RLS-dən uçan hədəflərin məsafədən aşkarlanması, hədəfi məhv etmək üçün koordinatların verilməsi üçün istifadə olunur. "Naim-802" İrəvan Rabitə Vasitələri Elmi-Tədqiqat İnstitutunda (ERNISS) hazırlanıb.**

# İranın təcavüzkar Ermənistanla hərbi əməkdaşlığına dair yeni faktlar ortaya çıxdı

## *İbrahim Rüstəmli: "Burada Azərbaycan amili, Qarabağ məsələsi, demək olar, nəzərə alınmır"*



"Regnum" agentliyi bildirib ki, mobil RLS-lər yaxınlıqdakı ekipaj olmadan sutkada 24 saat fəaliyyət göstərə bilər: "Bu, Ermənistan və Dağlıq Qarabağın üzərində hərtərəfli radiolokasiya sahəsinin yaradılmasına imkan verir. Ayrıca qeyd etmək lazımdır ki, RLS elektronika anten postundan uzaqdadır və radiolokasiya əleyhinə raketlərin tətbiqi halında hərbçilərin məğlubiyyət risqini praktik olaraq istisna edir. Bununla yanaşı, zərbəyə kompleksin ən ucuz hissəsi məruz qalır ki, onu tez bir zamanda əvəz etmək mümkündür".

O da məlum olub ki, 2016-cı ilin aprelində erməni ordusunun məğlubiyyətindən sonra İran-Ermənistan hərbi-texniki əməkdaşlığı möhkəmlənib. 2016-cı il mayın 24-25-də Tehranda Ermənistanın o zamankı müdafiə nazirinin müavini David Tonoyanın iranlı həmkarı Firuz Məsihpur, həmçinin, ökənin müdafiə idarəsinin rəhbəri Hüseyn Dehqani ilə görüşü olub. Ermənistan nümayəndə heyəti Malik Aştar Elm və Texnologiya Universitetini ziyarət edib.

Tərəflər hərbi əməkdaşlığın gündəliyini razılaşdırıblar və bu kontekstdə tədbirləri planlaşdırıblar. İyun ayında Maddi-Texniki Təminat Departamentinin rəisi Movses Akopyan başda olmaqla Ermənistan Müdafiə Nazirliyinin nümayəndə heyəti İrana səfər edib. Erməni nümayəndələr İran Müdafiə Nazirliyinin himayəsi altında fəaliyyət göstərən ETKA şirkətinin zavodlarına və mağazalarına baş çəkiblər, şirkətin icraçı direktoru Mehdi Kərbəla ilə görüşüblər. Nümayəndə heyəti ETKA məhsulları ilə tanış olub, həmçinin, İİR Müdafiə Nazirliyinin rəhbəri ilə növbəti görüş keçiriblər. Səfərin yekunları ilə bağlı anlaşma memorandumu imzalanıb, eləcə də bəzi razılaşmalar əldə olunub, lakin razılaşmaların mahiyyəti açıqlanmır.

Bütün bu deyilənlərlə yanaşı, İranın Ermənistanla birlikdə hərbi xarakterli qurğular istehsal etməsi nə deməkdir? Ekspertlər buna necə yanaşırlar?

Məsələyə münasibət bildirən **ehtiyatda olan polkovnik-leytenant İbrahim Rüstəmli İranın Ermənistanla birgə silah istehsal etməsinə mənfi prizmadan yanaşdı:** "Biz Qarabağ məsələsində İranın bizim üçün heç də əhəmiyyətli olmayan mövqeyini görmüşük. Bu gün də İran öz siyasi maraqlarını təmin etmək məqsədilə Ermənistanla kifayət qədər geniş əlaqələr qurub. Onların nəinki iqtisadi-ticarət sahəsində, həm də hərbi sahədə geniş əlaqələri var. Burada Azərbaycan amili, Qarabağ məsələsi, demək olar, nəzərə alınmır. İran bunu nəzərə alsaydı, Ermənistanla birgə RLS istehsal etməzdi. Ona görə də buna çox mənfi prizmadan yanaşıram. İranın Qarabağ məsələsində mövqeyi də bizə aydındır. Bu mövqe də Azərbaycana ümidverici heç nə vəd etmir.

Çünki İran Azərbaycanı güclü dövlət kimi görmək istəmir. Baxmayaraq ki, İranda 30 milyon soydaşımız yaşayır, ölkə hakimiyyəti Ermənistanla əlaqələrdə bunu nəzərə almır. Bu da əlbəttə ki, təəssüf doğurur. Bütün bunlar Azərbaycan üçün arzuedilən deyil".

> *"İran bunu nəzərə alsaydı, Ermənistanla birgə RLS istehsal etməzdi"*

***Vidadi ORDAHALLI***

**Rusiya Təhlükəsizlik Şurasının sədr müavini Rəşid Nurqəliyev NATO-nu Kollektiv Təhlükəsizlik Müqaviləsi ölkələrində "rəngli inqilab"lar hazırlamaqda ittiham edib. Onun sözlərinə görə, NATO-nun bu planı Rusiyaya məlumdur: "Bizim üçün sirr deyil ki, NATO-çular Qərbin nəzarətində olan rejimlərin hakimiyyətə gətirilməsinə hazırlaşır".**

*"Nə qədər ki, Tramp hakimiyyətdədir, biz dünyanın heç bir ölkəsində "rəngli inqilab"ın həyata keçdiyinin şahidi olmayacağıq"*

# Rusiya TŞ-dən KTMT ölkələrində "rəngli inqilab" xəbərdarlığı - NATO-çular qərbyönümlüləri hakimiyyətə gətirməyə hazırlaşır

***Qabil Hüseynli:** "Rusiya rəsmisi bu açıqlaması ilə KTMT-nin əhəmiyyətini artırmaq istəyib"*



TŞ rəsmisinin sözlərinə görə, bu zaman qüvvədə olan planlardan biri də "rəngli inqilab"lardır.

Xatırladaq ki, 1992-ci ildə Kollektiv Təhlükəsizlik Müqaviləsini Ermənistan, Qazaxıstan, Qırğızıstan, Rusiya, Tacikistan, Belarus və Özbəkistan imzalayıb.

Rusiyanın kifayət qədər yüksək rütbəli və məlumatlı şəxsi tərəfindən verilən bu informasiya düşünmək üçün ciddi əsaslar yaradır. NATO daha çox bu cür "rəngli inqilab"ları hansı KTMT ölkələrində keçirməkdə maraqlı olar?

**Politoloq Qabil Hüseynli "Bakı-Xəbər"ə bildirdi ki, deyilənlər o qədər də inandırıcı görünmür: "Burada Rusiya rəsmisi başqa məqsədi güdüb.** "Rəngli inqilab"lar ideyasını NATO ilə əlaqələndirmək qəribə səslənir. Çünki biz bilirik ki, bu tip ideyaların müəllifi hər zaman ABŞ olub. Bütün plan oradan hazırlanıb, maliyyəni də ora ayırıb. ABŞ, bir çox hallarda, bu istəklərinə nail də ola bilib. Tramp hakimiyyətə gələndən sonra isə bu ənənəni tamamilə məhv etdi. Demək olar ki, onun prezidentliyində biz dünyada ABŞ-ın dirijorluğu ilə belə bir hadisənin baş verdiyinin şahidi olmamışıq. Bu gündən sonra bənzər hadisənin baş verə biləcəyini ehtimal etmirəm. ABŞ Prezidenti açıq etiraf edib ki, bu cür layihələr çox böyük pullar aparır. Əsaslandırıb ki, həmin pulların xərclənməsi ABŞ xalqının maddi durumuna mənfi təsir edir. Ən maraqlısı isə budur ki, ABŞ-ın daxilində Trampın bu çağırışları müsbət qarşılanır. NATO qısa zaman intervalında belə layihələri həyata keçirmək gücündə deyil. Çünki qurumun bu sahədə təcrübəsi, demək olar ki, yoxdur. Hesab edirəm ki, Rusiya rəsmisi bu açıqlaması ilə KTMT-nin əhəmiyyətini artırmaq istəyib. Ora üzv olan ölkə başçılarına Rusiyanın ətrafında daha sıx birləşməyin zəruriliyinə dair mesaj verib. Çünki son vaxtlar Ermənistan və bəzi ölkələrin davranışında mərkəzdənqaçma meylləri nəzərə çarpır. Artıq Putin və Rusiyanın digər liderləri də KTMT-ni dünyanın ən güclü hərbi qurumu kimi təqdim edirlər. Sübut etməyə çalışırlar ki, dünyanın idarə olunmasında bir qütb yoxdur. Buna görə də hesab edirəm ki, Nurqəliyevin açıqlaması daha çox siyasi maraqlara hesablanıb və ciddi materiallara söykənməyib. Nə qədər ki Tramp hakimiyyətdədir, biz dünyanın heç bir ölkəsində "rəngli inqilab"ın həyata keçdiyinin şahidi olmayacağıq. Çünki bunların həyata keçməsi üçün külli miqdarda pul lazımdır. Tramp da həmin pulu xərcləmək istəmir".

***Məhəmmədəli QƏRİBLİ***

**İŞİD tərəfdarları Azərbaycanda çəkildiyi iddia olunan yeni video paylaşıblar. Görüntülərdə 3 nəfər üzübağlı üzvün terror qruplaşmasının "xəlifəsi" Bağdadiyə sədaqət andı içməsi yer alıb. Arxa fonda İŞİD-in bayrağı görünür, qruplaşma üzvlərinin əllərində isə "Kalaşnikov" avtomatları var.**

# Təxribatçı "İŞİD videosunda" Azərbaycanın adını məkrli niyyətlə hallandıranlar kimlərdir...

***Fikrət Sadıqov:** "...əksər hallarda bu cür təxribatlarda erməni barmağı olur"*



Özünün "Tvitter" hesabında Cənubi Asiyada terrorizm üzrə ekspert Faran Cefri yazır ki, "islamçılar" bu videonu "əməli-salehlər üçün ən yaxşı çıxış yolu" olaraq, dünyaya səpələnmiş üzvlərini bir araya gətirmək məqsədilə yayıblar. Azərbaycanda çəkildiyi iddia olunan həmin video Rusiyanın tanınmış informasiya portalları tərəfindən dövriyyəyə buraxılıb. Ancaq videoya baxanda onun Azərbaycanla bağlı olduğuna dair hər hansı vacib detala rast gəlinmir. Məlumdur ki, hazırda İranla ABŞ arasında ciddi gərginlik yaşanır. Bunun fonunda bu tip həqiqətə uyğun olmayan informasiyaların dövriyyəyə buraxmaqda məqsəd regiondakı vəziyyəti gərginləşdirməyə hesablana bilərmi?

**Politoloq Fikrət Sadıqov qəzetimizə bildirdi ki, Azərbaycanın adının bu cür məsələdə hallandırılması məqsədlidir və həmin məlumat həqiqəti əks etdirə bilməz:** "Bilirsiniz ki, Azərbaycanda təhlükəsizlik yüksək səviyyədə qorunur. Ölkənin daxilində heç bir terror təşkilatının fəaliyyəti üçün münbit şərait yoxdur. Hətta həmin təşkilatlara meyllənən fərdlərlə bağlı ciddi tədbirlər görürülr. Belə olan təqdirdə, terrorçuların təbliğinə həsr edilən hansısa videoçarxın guya Azərbaycanda çəkildiyini iddia etmək məkrli niyyətdən xəbər verir. Çox təəssüflə qeyd etməliyik ki, Rusiyanın bəzi informasiya nümunələrində biz ölkəmizə qarşı yönəlik belə informasiya təxribatları ilə tez-tez rastlaşırıq. Araşdırdıqda məlum olur ki, əksər hallarda bu cür təxribatlarda erməni barmağı olur. Çünki Rusiya KİV-ində kifayət qədər erməni əsilli şəxs çalışır. Azərbaycanın maraqlarına belə təxribatçı məlumatlarla zərbə vurmaq istəyirlər. Burada başqa bir məqsəd regiondakı gərginliyə Azərbaycanı da qatmaqdır. ABŞ-la İranın gərginləşən münasibətləri ilə bağlı ölkəmiz neytrallığını qoruyub saxlaya bilir. Görünür, bu bəzi dairələrə sərf etmir. İŞİD isə İranın düşmənidir. Onun ünvanını Azərbaycanda göstərməklə İranı ölkəmizə qarşı qəzəbləndirməyi hədəfləyirlər. Azərbaycan bütün terror təşkilatlarına qarşı ciddi mübarizə aparır. Bizdən heç vaxt kütləvi şəkildə İŞİD sıralarında döyüşən olmayıb. Tək-tük fərdlər olub ki, onların da bir qismi ölkədə cəzalandırılıb, digərləri isə ölkə hüdudlarından kənarda gizləniblər. Cənubi Qafqazda gərginliyin olmasında maraqlı olan dairələr var. Biz bu cür təxribatlara qarşı həssas olmalıyıq. Peşəkarlıqla onların yalanlarını ifşa etməliyik. Azərbaycanın dini mühitində heç bir radikallığa rast gəlinmir. Əksinə, dünyaya nümunə sayıla biləcək bir tolerant mühit var".

***Məhəmmədəli QƏRİBLİ***

**Qarabağ separatçıları ilə Ermənistanda mövcud hakimiyyət arasında artan gərginliyin artıq təhlükəli mərhələyə keçməsi düşmən ölkənin özündə də açıq şəkildə etiraf olunmaqdadır. Burada məsələnin daha bir maraq doğuran tərəfi odur ki, bir vaxtlar Ermənistanın baş naziri Nikol Paşinyanın hakimiyyətə gəlməsinə yardım edən qüvvələr də sıradan çıxarılır.**

# Ermənistan addım-addım qanlı toqquşmalara gedir - Paşinyanı hakimiyyətə gətirib vurulanlar ona qarşı təşkilatlanır...



Paşinyan mütləq mənada yeganə hakim qüvvə olmağı düşünür və inqilabda ona yardım edənləri də sıradan çıxarır. "Yerkrapah" hərbi təşkilatı ətrafında baş verənlər bunun real təsdiqidir. Məhz bu durumda "Qarabağ klanı" "Yerkrapah"ı öz sıralarına cəlb edərək onunla Paşinyana qarşı birləşməyi düşünür.

Erməni mediası yazır ki, hadisələr bu səpkidə inkişaf edərsə, İrəvanda növbəti hakimiyyət dəyişiklyii qan tökülməsi hesabına baş verəcək. Azərbaycanın işğal altındakı Dağlıq Qarabağ bölgəsində gələn il keçiriləcək "prezident seçkiləri"nə az qalmış isə tərəflər arasında qarşıdurmanın daha qanlı mərhələyə keçməsi gözlənir. Xatırladaq ki, separatçı rejimi nəzarət altına almaq üçün Nikol Paşinyan Dağlıq Qarabağ bölgəsində gələn il keçiriləcək "prezident seçkilərində" general Movses Akopyanın namizədliyini dəstəkləməyə hazırlaşır. Hazırda Ermənistanın baş hərbi müfəttişi olan Akopyan həmin "seçkilərdə" şəxsən Paşinyanın namizədi ola bilər. Movses Akopyan Dağlıq Qarabağda "müdafiə naziri" olub, daha sonra Ermənistan Silahlı Qüvvələrinin baş qərargah rəisi təyin edilmişdi. 2016-cı ilin aprel müharibəsindən sonra Akopyan da Müdafiə Nazirliyinin rəhbərliyində yer alan bir sıra generallarla birlikdə vəzifəsini itirdi. Prezident Serj Sarkisyan onu baş qərargah rəisi vəzifəsindən uzaqlaşdırıb baş hərbi müfəttiş təyin etdi. Son vaxtlar Paşinyanla Qarabağdakı rejim arasında ciddi ixtilaf yaşanır və belə məlumatlar var ki, qarabağlı generallar və keçmiş səhra komandirləri onu hakimiyyətdən uzaqlaşdırmağa and içiblər. İndi onlar bu məsələdə "Yerkrapah" hərbi təşkilatından da faydalanmağı düşünür.

Hələ məlum inqilab zamanı Nikol Paşinyan Sasun Mikaelyanı "Yerkrapah"ın sədri seçərək təşkilatı ələ keçirə bildi. Bu onu göstərirdi ki, Paşinynan öz hakimiyyətini qorumaq üçün yaranan problemlərin həllində köhnə hakimiyyətin əl atdığı üsullardan istfiadə etməyi düşünür. Belə ki, Köçəryan və Sarkisyan hakimiyyətinin Ermənistanda legitimliyi yox idi, buna görə də hakimiyyəti qorumaq məqsədilə siyasi rəqiblərini susdurmaq üçün qeyri-leqal güc strukturu olan "Yerkrapah"ın xidmətlərindən istifadə olunurdu. Təşkilat hakimiyyətə qarşı olanları qətlə yetirir və müxtəlif yollarla susdururdu. Bunu nəzərə alan Paşinyan Sasun Mikaelyanı quruma təyin edərək ona nəzarəti ələ keçirdi. Amma indi bəlli olur ki, "Yerkrapah"ın sədri Sasun Mikayelyan və Nikol Paşinyan arasında münasibətlər getdikcə gərginləşir. Ermənistanın "İrates" nəşri yazır: "Məlumdur ki, Paşinyanın rəhbəri olduğu "Siyasi Müqavilə" partiyasında daxili fermentasiyalar və bölünmələr gerçəkdir. Sasun Mikayelyan bölünmələr haqqında danışıb. Cəmi bir il bundan əvvəl partiyanın idarə heyətinin sədri və təsisçisi olan Mikayelyan bu dəfə onun tərkibində yer almayıb. Mikayelyan partiyanı tərk etdiyi üçün kifayət qədər diqqətli müşahidə aparıb. O, Nikol Paşinyana eyham vurur ki, idarə sədri olduğu vaxt siyasi qələbə qazanıb, indi isə inqilabdan dərs çıxarmaq lazımdır, əks təqdirdə inqilab "məxməri uzaqlığa" çevriləcək.

Bu, hər hansı bir yolla təhlükə kimi səslənir və sübut edir ki, Mikayelyanın tərəfdarları hakimiyyətin siyasətindən narazıdır. Onlar dərs çıxarılmasını tələb edirlər, lakin görünür, onları eşidən yoxdur. Daha bir diqqət yetirilməli məqam isə Mikayelyan və Paşinyanın "başının eyni qazanda qaynaya" bilməyəcəyidir. Yəni "iki qoçun başı, bir qazanda qaynamaz". Paşinyan belə bir bəyanat verib: "Hüquqmühafizə sisteminin ən əhəmiyyətli tapşırığı sözün məcazi mənasında keçmiş qarşısında qırmızı işığın yandırılması, gələcək qarşısında yaşıl işığın yandırılması və hüquqi gələcəyə çatmağın təmin edilməsdir". Mikayelyan isə ona bu cür cavab verib: "Bu illərdə sistem formalaşdırılıb və bəzi insanlar var ki, bu sistemə məruz qalıb, onlar normal qalıblar, işləyiblər. İndi biz adamı dəyişməyə gəlmişik, yoxsa insanları? Anlayırsınız? Gəlin hamımız insanların bu formada hansı təzyiq və manеələr altında işləməyə məcbur olduğunu öyrənək". Və həqiqətən bu, keçmiş "sistem"in doğuşudur. Mikayelyan o zaman Serj Sarkisyanın yaxın komanda yoldaşı idi və bu gün Paşinyana düzgün suallar verir: "İndi biz adamı dəyişməyə gəlmişik, yoxsa insanları?".

Nəşr qeyd edib ki, Mikayelyan Paşinyanı yaxşı başa düşmədiyi üçün bu cür çıxışlar edir: "Məlum olur ki, Mikayelyan Paşinyanı yaxşı başa düşməyib. İnsan bu cür dəyişir. Mikayelyan hazırda partiyadan kənarda qaldığı kimi, ola bilsin, gələcəkdə də partiyadan kənarda qalacaq. Yeri gəlmişkən, Mikayelyan bu faktdan sonra nəticə çıxarmalıdır. Paşinyan gənc, siyasi yol keçməmiş qubernator Romanos Petrosyana partiyanın əsasını qoymuş və inqilabın sütununa çevrilmiş Mikayelyandan daha böyük yer verdi". "İrates" daha sonra yazır: "Mikaelyan cəmiyyətin nəbzini yaxşı hiss edir və anlayır ki, özü-özünə işləmə qaydası müsbət nəticələr verə bilməz, əksinə, böyük xəyal qırıqlığına səbəb olacaq. Mikaelyan onu Kotayk vilayətinin qubernatoru Romanos Petrosyana uduzduran Paşinyanı bağışlmayacaq. Mikaelyan bu xüsusda bildirib: "Hakimiyyət namizədliyimə qarşı oldu. Mənə qədər Romanos inqilabda fəal deyildi. Əgər biz dərs çıxarmasaq, bu inqilab bizim tərəfimizdən məxməri uzaqlaşma olacaq". Hərbi təşkilat sədrinin sözləri həqiqətən əvəzolunmazdır. O, yeni hakimiyyət nümayəndələrindən ilk şəxsdir ki, həqiqəti dedi. Deputat hakimiyyətin gənc üzvlərinə öz yerini göstərir.

O aydın şəkildə qeyd edir ki, hökumətin bir çox nümayəndələri hər hansı bir şey təqdim etmir, yalnız Paşinyanın sayəsində hakimiyyət başındadırlar".

Bütün bunlar Paşiyan tərəfdarları arasında artıq ciddi parçalanmalar olduğunu üzə çıxarır. Bundan istifadə etməyə çalışan "Qarabağ klanı" "Yerkrapah"ı öz sıralarına cəlb edərək onunla Paşinyana qarşı çıxmağı düşünür və bu zaman hadisələrin qanlı müstəvidə inkişafı istisna olunmur.

***Nahid SALAYEV***

# Paşinyan qondarma "DQR" üçün oyuncaq prezident tapdı

**Son vaxtlar Ermənistanda Paşinyan rejimi ilə qondarma "DQR" arasındakı münasibətlərdə yaranmış ziddiyyətin açıq müstəviyə qədəm qoyduğunun şahidi oluruq. Artıq qondarma qurumun rəhbəri Bako Saakyanın Köçəryanın işi üzrə istintaqa cəlb edildiyi, hətta ifadəsinin alındığı bildirilir.**



Vəziyyət o yerə gəlib ki, Paşinyan artıq qondarma qurumun rəhbərliyini kimə həvalə edəcəyini də müəyyənləşdirib. Erməni KİV-inin yazdığına görə, hazırda Ermənistanın baş hərbi müfəttişi olan Akopyan həmin "seçkilərdə" şəxsən Paşinyanın və İrəvanın namizədi ola bilər.

Ermənistanın Baş naziri Nikol Paşinyan Azərbaycanın işğal altındakı Dağlıq Qarabağ bölgəsində gələn il keçiriləcək "prezident seçkilərində" general Movses Akopyanın namizədliyini dəstəkləməyə hazırlaşır. Paşinyanın birbaşa nəzarətində olan "Jamanax" qəzeti yazır:

"Paşinyan başa düşür ki, general Vitali Balasanyan və onun ətrafında cəmləşən qruplaşmaya ancaq həmin qrupa qarşı çıxmaqdan çəkinməyən, onların təhdidlərinə boyun əyməyən biri qalib gələ bilər".

Qeyd edək ki, general Movses Akopyan Dağlıq Qarabağda "müdafiə naziri" olub, daha sonra Ermənistan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi təyin edilmişdi. 2016-cı ilin aprel müharibəsindən sonra Akopyan da Müdafiə Nazirliyinin rəhbərliyində yer alan bir sıra generallarla birlikdə vəzifəsini itirdi. O vaxtkı prezident Serj Sarkisyan onu Baş Qərargah rəisi vəzifəsindən uzaqlaşdırıb baş hərbi müfəttiş təyin etdi.

Paşinyanın bu istəyi reallaşa bilərmi?

## *Aqşin Əliyev: "Paşinyan həmin vaxta kimi hakimiyyətini qoruyub saxlaya biləcəksə..."*

**Ekspert Aqşin Əliyev qəzetimizə bildirdi ki, qondarma rejimin sabiq və indiki "prezidentləri" Qukasyan və Saakyanın Köçəryanın həbsdən çıxarılması ilə bağlı göstərdikləri çabalardan sonra vəziyyət çox dəyişdi:** "Ermənistan hakimiyyəti ilə "Qarabağ klanı" arasındakı ziddiyyətlərin kəskin xarakter aldığı və münasibətləri bərpa etməyin mümkünsüzlüyü bir daha yəqinləşdi. Ermənistanın keçmiş prezidenti Robert Köçəryanın yenidən həbs edilməsi bunun bariz nümunəsidir. N.Paşinyan 2020-ci ildə Dağlıq Qarabağ separatçılarının başına özünə sadiq adamı "prezident" gətirmək planı üzərində işləyir. Paşinyan hakimiyyəti yaxşı bilir ki, onlarla mübarizə aparan klanın əsas qalası "DQR"dir. Çünki uzun müddətdir Ermənistanı da oradan çıxan, hətta "DQR"ə rəhbərlik etmiş şəxslər idarə edib. Paşinyan bilir ki, Köçəryanı həbs etdirməklə özünə qarşı olan müxalifəti tam zərərsizləşdirmiş olmur. Təsadüfi deyil ki, məhz bu qarşıdurmanın fonunda, Paşinyan və "DQR" rəhbərliyi bir-birini cəbhədə xəyanət edə biləcəyində ittiham etmişdilər. Paşinyan bundan çox ehtiyat edir. Bu səbəbdən də orada öz namizədi kimi hərbçini görür. Planı bundan ibarətdir ki, yalnız qondrama "DQR"də möhkəm nizam intizam yaratmaqla buna nail olmaq mümkündür. Ancaq oradakı rəhbərliyin dəyişməsi yalnız Paşinyanın istəyinə bağlı olan məsələ deyil. Hər zaman "DQR"ə rəhbərlik edəcək şəxslər Rusiya ilə razılaşdırılıb. Hələ ki, 2020-ci ilə çox var. Ermənistandakı hadisələrin bu axarla davamı Paşinyanın özünün o vaxta kimi hakimiyyətdə qalacağını şübhə altına salır. Bundan əlavə, Paşinyanın "DQR"dəki nüfuzu elə də yüksək deyil ki, istədiyi adamı orada rəhbər təyin etsin. Paşinyan həmin vaxta kimi hakimiyyətini qoruyub saxlaya biləcəksə, onda 2020-ci ildəki "DQR" rəhbərliyi uğrunda mübarizə əsl qarşudurmaya çevriləcək. Köhnə klan "son qalası" uğrunda vuruşacaq.

**Onu heç vəchlə Paşinyana asan təhvil verməyəcək. Paşinyan oradakı rəhbərliyi ələ keçirə bilsə, onda öz hakimiyyətinin ömrünü bir az da uzatmış olacaq".**

***Məhəmmədəli QƏRİBLİ***

# Ermənistanın Belarusla yaxınlaşma üçün xüsusi səyləri görünməyə başlayır - təcavüzkar ölkənin yeni planı...

**Son vaxtlar Ermənistanın xarici siyasət kursunda Belarusa yaxınlaşmaq cəhdləri hiss edilir. Ermənistan məmurlarının Belarusa səfərləri, həmin ölkə ilə qarşılıqlı əlaqə qurmaq meylləri nəzərə çarpır. Bir neçə gün əvvəl isə Ermənistan Prezidenti Armen Sarkisyanın Minskə səfəri reallaşıb.**



Belarus Prezidenti Aleksandr Lukaşenko Minskdə Ermənistan Prezidenti Armen Sarkisyanla görüşdə dolayısı ilə İrəvan daxilindəki siyasi mübarizəni ifşa edib. Lukaşenko Ermənistanın Baş naziri Nikol Paşinyanla telefonda danışdığını, Paşinyanın Prezident Armen Sarkisyana salam dediyini açıqlayıb: "Mən ona dedim ki, biz onu (Armen Sarkisyanı - red.) Ermənistana getməsi üçün tələsdirmirik, həm də o burada Ermənistan üçün lazımlı işlərlə məşğuldur".

Ardınca üzünü A.Sarkisyana tutaraq, "Siz həqiqətən, tələsmirsiniz? Baxın, sənaye, kənd təsərrüfatı ilə öz iqtisadiyyatınız nöqteyi-nəzərindən maraqlanın. Siz ağıllı, təhsilli, təcrübəli insansınız, bilirsiniz ki, maraqlanmaq Ermənistan üçün faydalı və əhəmiyyətlidir".

Lukaşenko Belarus-Ermənistan əlaqələrinə də toxunub və qeyd edib ki, "Erməni dostlarımız Belarusa sərmayə qoyurlar, buna görə onlara təşəkkür edirəm. Amma bir şərtim var, dostluq başqa, dövlət başqa…".

Ermənistan Belarusa yaxınlaşmaqla nəyi hədəfləyir?

## *Elşən Mustafayev: "Ermənistanın ora doğru istiqamət götürməsi guya bizim bir qədər neytrallaşmağımıza nail olmağa hesablanıb"*

**Politoloq Elşən Mustafayev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Ermənistanın bu səylərində, əslində, Azərbaycanla mübarizə faktoru durur:** "Son vaxtlar Ermənistanın xarici siyasət kursunda bu tendensiya daha qabarıq nəzərə çarpmağa başlayıb. Ermənistan Azərbaycanın yaxın dost olduğu ölkələrlə təmaslara keçir, onlarla daha sıx əlaqələr qurmaqda maraqlı olduğunu göstərir. Biz bunu bir müddət əvvəl İsraillə də bağlı gördük. Ermənistan həmin ölkəyə də ciddi yaxınlaşdı, hətta orada səfirlik açmaq kimi niyyətinin olduğunu da bəyan etdi. Bilirsiniz ki, Belarus da Azərbaycanla yaxın ölkədir. Ermənistanın ora doğru istiqamət götürməsi də məhz bizim bir qədər neytrallaşmağımıza nail olmağa hesablanıb. Yadınızdadırsa, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında (KTMT) baş katib postuna görə Paşinyanla münasibətləri korlanan Lukaşenko Minskdə Sarkisyana "Paşinyan sizə salam deyir" sözləri ilə "İrəvanın daxilindəki çatlardan xəbərim var" mesajını vermiş olub. O cümlədən, Armen Sarkisyanı "ağıllı, təhsilli, təcrübəli" adlandırmaqla Paşinyana su daxili mübarizədə kimin tərəfində olduğunu nümayiş etdirir. Lukaşenkonun davranışlarından açıq görünür ki, o, Ermənistanla münasibətlərə o qədər də ciddi yanaşmır. Bilir ki, Ermənistanla onları nə siyasi, nə də iqtisadi cəhətdən ciddi tellər bağlaya bilməz. Bir faktı da qeyd edim ki, Lukaşenko Rusiyanın əsas dayaqlarından sayılır.

Onun Qərbin adamı kimi xarakterizə olunan Paşinyan hakimiyyəti ilə heç vaxt səmimi və sıx əməkdaşlığı alına bilməz. Ermənistanın bütün bu cəhdlərində blef etmək istəyi aydın görünür. Hesab edirəm ki, işğalçı ölkənin bu cəhdləri bizim Belarusla münasibətlərimizə zərrə qədər də olsun zərər verməyəcək".

***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycanın təşəbbüsü ilə yaradılan OPEC+ formatının son qərarı neft bazarında canlanma yaratdı - qiymətlər yenidən yüksəlməyə başlayır

**Azərbaycanın təşəbbüsü ilə yaradılan OPEC+ formatı neft bazarında qiymət enişinin qarşısını yenidən uğurla ala bilib. Belə ki, Vyanada OPEC+ nazirlərinin 6-cı görüşündə neft hasilatının azaldılmasına dair razılaşmanın müddətinin daha 9 ay uzadılması qiymətlərin yenidən yüksəlişinə təkan verib.**

Yeri gəlmişkən qeyd edək ki, OPEC və qeyri-OPEC ölkələrinin 2020-ci ilin birinci rübünün sonunadək qüvvədə olacaq qərarına Azərbaycan da qoşulub.

Xatırladaq ki, Vyanada "Əməkdaşlıq Bəyannaməsi"nin icrası 2019-cu ilin 1 iyul tarixindən 2020-ci ilin 31 mart tarixinədək nəzərdə tutulub. Ötən ilin dekabrında qəbul edilmiş "Əməkdaşlıq Bəyannaməsi" üzrə OPEC+ ölkələrinin kvotaları isə dəyişməz qalır. OPEC isə hələ keçən ilin dekabr ayında neft hasilatını 2019-cu ilin iyun ayının sonunadək gündəlik 1,2 milyon barrel azaltmaq barədə qərar vermişdi. Bundan başqa onu da qeyd edək ki, Vyanada OPEC+ nazirlərinin 6-cı görüşündə OPEC və qeyri-OPEC ölkələri arasında uzunmüddətli əməkdaşlığa dair xartiya qəbul olunub. "Əməkdaşlıq Xartiyası"na Azərbaycan da qoşulub. Tədbirdə iştirak edən Energetika naziri Pərviz Şahbazov OPEC və qeyri-OPEC ölkələri nazirlərinin budəfəki görüşünü OPEC+ əməkdaşlığı çərçivəsində tarixi hadisə kimi qiymətləndirib: "OPEC və qeyri-OPEC ölkələri arasında "Əməkdaşlıq Xartiyası" sayəsində neft bazarının balanslaşdırılması ilə bağlı səylərimizi artıq təşkilatlanmış şəkildə həyata keçirəcəyik. Xartiya uzunmüddətli əməkdaşlıq mexanizmi kimi neft istehsalçılarının maraqlarının qorunmasına və neft sənayesinə davamlı dəstəyi təmin edəcək. Bu, iqtisadi və geosiyasi qeyri-müəyyənliklərin davam etdiyi vaxtda bazarın balanslaşdırılması üçün vacib bir qərardır. OPEC+ ölkələri növbəti dəfə risqlərə qarşı həmrəylik nümayiş etdirdilər. Azərbaycanın bu prosesə qoşularaq xartiyaya imza atması isə ölkəmizin maraqlarına tam uyğundur".

OPEC+ Nazirlərinin Vyanada keçirilən növbəti iclası artıq dünya bazarlarında neftin qiymətinə müsbət təsir göstərib. Avropa bazarları üçün əhəmiyyət daşıyan "Brent" markalı neftin bir barreli 66 dollara çatıb və ötən həftədəki orta göstəricidən yuxarı olub. Azərbaycan nefti yenidən 70 dollara yaxınlaşır. Ekspertlərin fikrincə, qlobal vəziyyət və ABŞ-Çin ticari gərginliyi fonunda təzyiq altında olan qiymətləri dəstəkləmək üçün hasilatın azaldılması zərurəti bundan sonra da qiymətlərin yüksəlməsinə gətirib çıxaracaq. Digər tərəfdən, ekspertlər yaxın gələcəkdə istehsalçı ölkələr tərəfindən hasilatın hazırkı limitdən də aşağı salınacağını güman etmir. Lakin bu baş verərsə, qiymətlərin daha sürətlə artması gözlənir.

Ekspertlərin fikrincə, indilikdə OPEC və kartelə üzv olmayan ölkələrin son addımı ilə dünya bazarında neftin qiymətinin tədricən yüksəlməsini gözləmək olar. Hamburq Kommersiya Bankının baş iqtisadi analitiki Sayrus de la Rubia bu xüsusda bildirib ki, qarşıdakı dövr

ərzində neft qiymətlərinin yüksəlməsini gözləmək olar: "Hazırda ABŞ və Çin arasında ticari münaqişə, ABŞ və İran arasında Fars körfəzindəki gərginlik və eləcə də Venesueladakı siyasi proseslər OPEC+ qərarının dünya neft bazarına təsir edir. Eləcə də dünyadakı müsbət iqtisadi inkişaf əsas ümidverici faktor olaraq qalır. Konyunktura proqnozları müsbət olaraq qalsa, bu da öz növbəsində OPEC+ qərarının effektivliyinə öz təsirini göstərəcək".

Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şaban da vurğulayır ki, gündəlik neft hasilatını azaltmaq qərarının daha 9 ay uzadılması neft bazarı üçün çox müsbət siqnaldır: "Əsasən may ayından sonra İrana qarşı sanksiyalar bazarda qeyri-müəyyənlik yaratmışdı, siyasi gərginlik müşahidə olunurdu. Bu siyasi gərginliyin fonunda qiymətlərdə volatillik artmışdı, bazarda uzun müddət bu cür sıçrayış, enmələr və yaxud artımlar olmurdu. Ona görə bazar iştirakçıları arasında narahatlıq hökm sürürdü. Digər tərəfdən, hasilatın azaldılmasına dair keçən ilin dekabr ayında verilən qərarın yenidən uzadılması ilə bağlı müxtəlif fikirlər səsləndirilirdi. İranın mövqeyi də çox sərtləşmişdi və ortaq məxrəcə gəlmək mümkün olmurdu. Eyni zamanda, dünyada gedən ticarət müharibələri bazarda təzyiqləri artırırdı. Ona görə də qiymətlər gah qalxır, gah da düşürdü".

O bildirib ki, G20 sammiti çərçivəsində Çin prezidenti Si Szinpin və ABŞ prezidenti Donald Trampın görüşünün nikbin başa çatması, Səudiyyə Ərəbistanı və Rusiya liderləri arasında danışıqlarda bazara yönəlik müsbət siqnalların verilməsi sonda neft hasilatını azaltmaq qərarının daha 9 ay uzadılmasına gətirib çıxardı:"Burada Rusiyanın rolunu qeyd etmək lazımdır. Çünki Rusiya prezidenti Vladimir Putin qeyd etmişdi ki, müddətin 6 ay uzadılmasının elə də əhəmiyyəti yoxdur. Artıq bazarda qiymətlər stabilləşib. Neftin qiymətinin 60-65 dollar dəhlizində olması həm hasilatçılar, həm də istehlakçılar üçün normaldır".

İndilikdə İran ətrafında və Yaxın Şərqdə baş verən proseslər də neftin qiymətinə təsir edir. Bu, ən azı, ilin sonunadək neftin qiymətinin bahalaşacağını söyləməyə əsas verir. Baş verən proseslər onu göstərir ki, bütün hallarda əsas neft ixracatçısı olan ölkələrdə, yəni İran, Venesuela, ərəb ölkələrində baş verən proseslər neft bazarında əsas rol oynayacaq. Bundan başqa məlumdur ki, bazarda qiymətləri əvvəllər ABŞ OPEC vasitəsilə diqtə edirdi. İndi isə vəziyyət dəyişib, OPEC-lə ABŞ-ın qiymətə münasibətdə yanaşmaları kəskin fərqlənir. Hətta bir çox məqamlarda OPEC ABŞ-ın mövqeyinə qarşı gedir. Bu da 2014-cü ildən başlayan ucuzlaşmadan sonra müşahidə edilir. Həmin ucuzlaşmadan OPEC-ə üzv ölkələr böyük zərər çəkdi. OPEC-in aparıcı ölkələrindən olan Səudiyyə Ərəbistanı yüz milyardlarla dollar zərərlə üzləşdi. Bu baxımdan, ABŞ-ın qiymətlərin azaldılması tələblərini Səudiyyə getdikcə daha çox qulaqardına vurur.




Eyni zamanda Rusiyanın da bazara təsir imkanları getdikcə artır. Yəni faktiki olaraq dünya neft bazarında qiymətlərə təsir edən güclər artır, bu isə rəqabəti gücləndirir. Hazırda dünya bazarında qiymətlərə təsir edən amillər yaxınmüddətli dövrdə bir barrelin 70 dollar civarında dəyişməsinə səbəb olacaq. Neft hasilatçısı olan Azərbaycan üçün mövcud qiymətlər əlverişlidir. Hazırkı qiymətlər Azərbaycanın valyuta ehtiyatlarının artmasına, büdcə proqnozlarına tam əməl edilməsinə şərait yaradır.

Hazırda ölkənin tədiyə balansı müsbətdir, valyuta bazarında tam sabitlikdir. Qiymətlərin bu həddə qalması makroiqtisadi sabitliyin də davamlı olması deməkdir.

***Tahir TAĞIYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Moskva Qarabağ məsələsində Bakıya yaxınlaşır, İrəvan region ölkələri arasında təklənir

## *Paşinyanın Köçəryana qarşı siyasi vendetta addımları ilə bağlı şərhlər erməni mətbuatını bürüyüb*

**Bu gün regionda hökm sürən geosiyasi vəziyyət işğalçı Ermənistanın daha ağır duruma düşdüyünü üzə çıxarır. Rusiyanın, İranın, Qərb ölkələrinin, hətta Gürcüstanın belə Ermənistandan üz döndərməsi işğalçı ölkənin regionda onsuz da zəif olan mövqeyini daha kövrək hala gətirir. Ermənistanda açıq şəkildə vurğulanır ki, hadisələr bu səpkidə inkişaf edərsə, İrəvanın indiki Dağlıq Qarabağ siyasətini davam etdirməsi sadəcə mümkünsüzdür.**

Hazırda işğalçı ölkədə ciddi narahatlıq predmetinə çevrilən əsas məqamlardan biri Rusiya ilə sürətlə pisləşən münasibətlərdir. Burada hesab edilir ki, indiki vəziyyətdə Rusiyanın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın yanında yer alma ehtimalı getdikcə artır və bu da İrəvan üçün çox ciddi siqnaldır. Ermənistanın xarici siyasətində Rusiya ilə bağlı atdığı yanlış addımlar da bu prosesə əlavə təkan verir. Məsələ ilə bağlı Rusiyanın "rosbalt.ru" portalı yazır: "Rusiyanın xarici siyasətində - xüsusən sovetsonrası, ayrıca da Qafqaz yönündə - baş verən hadisələr açıqca anlaşılmazlıq doğurur. Buna örnək çoxdur, amma biz burada, görünür, hər şeyin artıq başayaq olduğu Rusiya-Ermənistan münasibətlərinin üzərində duracağıq. Moskva ya Ermənistanın siyasi gerçəkliklərindən tam qopub, ya da özünü sadəlövh göstərərək İrəvana "çubuq cəzası" hazırlayır - məsələn, Qarabağ zəminində. Ötən həftə ideyaca Rusiyanı şəkləndirməli və düşüncəyə aparmalı olan iki önəmli hadisə baş verib: Ermənistanın yeni hökuməti ilə Ruisya gerçək müttəfiqdirmi? Görünür, Rusiyanın siyasi isteblişmenti indi Qafqazın başqa bir qaynar nöqtəsilə - "rusa nifrət edən" Gürcüstanla, daha doğrusu, onu cəzalandırmağa yeni yollar axtarışı ilə elə məşğuldur ki, Ermənistanda baş verənləri "görməyib". Yəni Avropa Şurası Parlament Assambleyası (AŞPA) Rusiyaya səs hüququnu məhdudlaşmadan bu təşkilata qayıtmaq imkanı verən sanksiya mexanizmini dəyişmək haqda qətnamə qəbul edib. Qətnamənin lehinə 118, əleyhinə 62 deputat səs verib, 10 nəfər bitərəf qalıb.

Həm də Rusiyanın tam tərkibdə AŞPA-ya qayıdışını 11 ölkə, əsasən "xalis" Avropa ölkələri həmrəyliklə dəstəkləyib. Amma bax, baş nazir Nikol Paşinyanın sözlərinə görə "Rusiya ilə parlaq münasibətləri" olan "müttəfiq" Ermənistan öz havadarını aldadıb, hərçənd bu, Rusiyanın taleyini həll etmirdi. Yəni Ermənistan heyəti AŞPA-da parçalanıb: Ermənistanın şərti müxalifət partiyalarından iki deputat Rusiyanın qayıdışına, Paşinyanın hakim "Mənim addımım" partiyasından ikisi isə əks yöndə səs verib. Deməli, Ermənistan parlamentinin xarici əlaqələr üzrə komissiya sədri Ruben Rubinyan qətnamənin qəbuluna qarşı səs verib, həmkarı Ohanes İgityan isə səsverməyə ümumiyyətlə qatılmayıb. O heç bir siyahıda - "lehinə", "əleyhinə" səs verənlər və səs saxlayanlar - yoxdur. Düzdür, bu artıq gözə ciddi dəyərkən Rubinyan bildirib ki, "lehinə" səs verib və "texniki yanlışlıq" olub. Bəs onda İgityanla bağlı necə, onunla da bağlı "texniki yanlışlıq" baş verib? Aydınlaşdığı kimi, bu, Rusiya-Ermənistan münasibətlərində sonuncu deyil. Çünki Apellyasiya Məhkəməsi AŞPA-dakı hadisələrlə, demək olar, eyni zamanda Kremlin ən yaxın silahdaşı, Ermənistanın keçmiş prezidenti Robert Köçəryanı təkrar həbs etmək qərarı verib. Yəni birinci instansiya məhkəməsinin onun işi üzrə icraatı dayandırmaq və Konstitusiya Məhkəməsinə göndərmək üzrə qərarı ləğv olunub. Yada salaq ki, Köçəryanı konstitusiya quruluşunu devirməkdə ittiham edirlər. İşdə habelə keçmiş müdafiə naziri Seyran Ohanyan, Baş Qərargahın keçmiş rəisi, sonradan KTMT baş katibi postunu tutan Yuri Xaçaturov və baş nazirin keçmiş birinci müavini Armen Gevorkyanın da adları keçir. Rusiya hökuməti Köçəryan və Xaçaturovun həbsilə bağlı qəzəbini gizlətməyib. Sonuncu ilə bağlı əhvalat isə bloka ümumiyyətlə ciddi nüfuz itkisi gətirib.

Moskvanın öz silahdaşı Köçəryanı unutmamasından bu fakt "danışır" ki, o, bir daha həbs edilməzdən az əvvəl Rusiyanın Ermənistan səfiri Sergey Kopırkinlə görüşüb və bu, Ermənistanda böyük səs-küy doğurub. Rusiya səfiri hətta keçmiş prezidentlə görüşdən sonra Ermənistan Konstitusiya məhkəməsinin sədri ilə təmasda olub: onların söhbətinin mövzusu, çətin ki, hansısa şübhəyə yer qoysun. Amma hamısı hədərmiş. Ermənistan xarici işlər nazirinin müavini Qriqor Ovanisyan bildirib ki, Kopırkin Köçəryanla görüşməklə diplomatik protokol və normalar çərçivəsində heç nəyi pozmayıb. Bununla belə, səfiri "izahat üçün" XİN-ə dəvət ediblər. Ermənistan mətbuatı isə "haray salıb": "Lragir" xüsusən hiddətlənir ki, keçmiş prezidentin səfirlə görüşü təkbətək keçib.

Diplomatı XİN-ə isə, aydındır ki, Ermənistanın "daxili işlərinə qarışmaq"la bağlı çağırıblar. Və ümumiyyətlə, "Lragir" yazır: "Rusiya Ermənistanda məğlubiyyətə oynayır - bilə-bilə və nümayişkaranə, … daha doğrusu, Robert Köçəryanın öz müdafiəsini qurmağa çalışdığı Rusiyanın Ermənistandakı nüfuzunun ənənəvi qavramı məğlub olur. Və bu, "Sankt-Peterburqda Paşinyan-Putin görüşündən sonra baş verir". Və xülasə kimi: "Robert Köçəryanın üzərinə, demək olar, tarixi missiya qoyulur - Rusiyanın Ermənistandakı "ənənəvi" nüfuzunun məğlubiyyətini ifadə edir". Rusiya isə "dilemma qarşısında qalıb: ya Ermənistanın suverenliyi üzərindən özünün bölgəsəl rolunu yenidən mənalandırmaq, ya da bölgədə nüfuzu tam itirmək". Amma görünür, Moskva özünü elə göstərir ki, guya "yenidən mənalandırma" yolu ilə gedir. Hər halda, AŞPA-da "texniki qüsur"dan sonra aşkar qalmaqal qurmayıb ki, bunun ona çox da xas olmadığı xüsusi qeyd olunmalıdır. "Dəhşətli heç nə baş verməyib, - RF XİN rəsmi təmsilçisinin müavini Artyom Kojin deyib. - Anladığımız qədər və deputatın özünün şərhindən çıxış etsək, o, sadəcə, səsvermə zamanı düymələri qarışıq salıb. Əslində o "lehinə" səs verib. Bu sadəcə, texniki ziyandır". Nə olar ki, diplomatik "sadəlövhlüyün" arxasında uduşlu bölgü durursa, böyük günah deyil. Amma bax, uğursuzluqdur: Ermənistanın yeni hakimiyyətinin bir növ ruporu olan sözügedən nəşr yazır ki, Ermənistan Rusiyadan milli iqtisadiyyatın "açarlarını" qaytarmağı tələb edir. Və "ağlasığmaz sərvəti olan" Köçəryanı da bu açarları Moskvaya verməkdə ittiham edir. Dedi-qodulara görə, "açarlar" isə Ermənistan iqtisadiyyatının, demək olar, yarısını "açır". Belə ki, keçmiş prezidentə daha bir ittiham elan edilərsə, təəccüblü heç nə olmayacaq. "Lragir" yazır: "Məsələ hətta təkcə pulda və konkret aktivlərdə də deyil, bundadır ki, Köçəryan bu aktivlərə-açarlara malikdir və bu açarlar Rusiyada saxlanır. Ermənistanın infrastrukturları, yer təkinin çoxu Rusiyanın dövlət korporasiyalarına verildiyindən vizual danışmaq olar, amma bu, aysberqin yalnız zirvəsidir - əslində, Moskva Ermənistan iqtisadiyyatı üzrə qərar alınan yer olub. Və indi açarlara sahib olmadan iqtisadi islahatları, xüsusən də inqilabı həyata keçirmək çətindir. Çoxları Köçəryanın həbsi və cinayət təqibini Ermənistanın yeni hakimiyyətinin iqtisadiyyatın açarlarını geri almaqda təbii niyyətə bağlayır. Ola bilsin, Rusiya bu açarları saxlamağın əvəzində Köçəryanı təhvil verməyə razıdır, amma bu açarlarsız Köçəryan Ermənistanda heç kimə gərək deyil".

Dəqiqləşdirmək üçün: söhbət Rusiyanın dövlət korporasiyalarındakı səhmlərdən, "Qazprom"un icazəsi olmadan Ermənistanın İrandan qaz ala bilməyəcəyi haqda onlara açıq və gizli əlavələrdən, Ermənistanın rabitə sahəsinin Rusiya şirkətlərinə verilməsindən, "hətta İrəvanda sputnik stansiyasının sökülməsindən" gedir. Ermənistan AİB-ə girdikdən sonra isə özünün gömrükxana gəlirlərinə nəzarət edə bilmir. Bir sözlə,"Ermənistan indi açarları geri istəyir". Ermənistanın baş prokuroru Artur Davtyan Rusiya səfiri Kopırkinlə görüşdə qanunsuz əldə edilmiş əmlakın müsadirəsi üçün işin və Ermənistandan aparılmış aktivləri qaytarmaqda institusional mexanizmlərin önəmini də vurğulayıb. Baş prokuror bildirib ki, respublikadan qanunsuz çıxarılmış aktivləri qaytarmaq probleminin həlli və Ermənistanın və başqa ölkələrin məhkəmə qərarlarını qarşılıqlı tanımaq üçün tədbirlər görüləcək.

İndi söz Rusiyanındır. Burada Dağlıq Qarabağ münaqişəsi ilə bağlı təzyiq işə düşə bilər. Moskva görür ki, Ermənistanın indiki hökuməti Qərbin ona daha əziz olduğunu sirrə çevirmir. Kreml Paşinyanı və komandasını siyasi və ideoloji uzunömürlü saymır. Burada nəzərə alınmalıdır ki, Ermənistana güzəştli kreditlə və daxili qiymətlərlə silah satan Rusiya ilə hərbi-texniki əməkdaşlığın inkişafı, xüsusən də İrəvan üçün həyat önəmlidir, çünki başqa tərəfdaşlar yoxdur. Rusiya bundan imtina etsə, Ermənistan daha acınacaqlı vəziyyətə düşəcək.

Bundan savayı, Rusiya və Ermənistan Cənubi Qafqazda təhlükəsizliyi təmin etmək üçün birləşmiş qruplaşma yaradıb. Buna əlavə edək ki, Ermənistan ərazisindəki Gümrüdə Rusiyanın hərbi bazası mənzillənib - hesab edildiyi kimi, xarici təhlükələri dəf etmək üçün. Amma qeyd edək ki, Ermənistan qəti olaraq qeyri-məqbul yer olmayınca Cənubi Qafqazda möhkəmlənmək Rusiya üçün son dərəcə önəmlidir - burada yenə də Moskvanın respublikada siyasi durumu geri döndərməyə oynamaq hesabı var.

Bu, məsələnin zahiri tərəfidir və yetərincə etibarsızdır, çünki Ermənistan Rusiyadan ala biləcəyi hər şeyi almaq və əvəzində heç nə verməmək istəyir ki, AŞPA-dakı səsvermə bunu göstərib. Bu isə, yumşaq deyilsə, Ermənistanın xarici gündəminin ikiliyini sərgiləyib: bir növ, guya "Rusiyaya qarşı deyilik", amma eyni zamanda Qərbə göstərik ki, potensialca "onlarlayıq". Bəs burada müttəfiqlik münasibətləri haradadır? Doğrusu, Moskva üçün bu daha çox Bakı ilə formalaşır - Azərbaycan nümayəndə heyəti elliklə Rusiyanın AŞPA-ya qayıtmasına səs verib və düymələri qarışıq salmayıb. Belə ki, Paşinyan hakimiyyətdə qalarsa, istisna deyil ki, Rusiya elə həmin Qarabağ və silah tədarükü məsələsində Ermənistandan aralanacaq ki, bu da Azərbaycanın işinə yarayır. Bir də Köçəryanın həbsi də İrəvanı möhkəm korlaya bilər - hər halda, Ermənistanın qəzəbə gəlmiş keçmiş prezidentini doğum günü münasibətilə "Putinin özü" təbrik edib ki, bu da Ermənistan hökuməti üçün müəyyən "siqnal" rolunu oynamalıdır. Amma oynamayıb. Əlbəttə, bir məzəli durum olmasaydı, burada "ədalət məhkəməsinin qələbəsi"ndən də danışmaq olardı: Köçəryan özü respublikanın seçilmiş prezidenti ola-ola "konstitusiya quruluşu"nu necə devirə bilərdi?

Doğrusu, buradan vendetta iyi gəlmirmi? Çünki Köçəryanın Ermənistan başçısı seçilməsnə qarşı 1 mart etiraz aksiyaları dağıdılarkən Paşinyan iğtişaşlar təşkil etmək ittihamı ilə həbs olunub - onu yeddi il müddətinə azadlıqdan məhrum ediblər, amma 2011-ci ildə əfv olunub. Artıq bir ildən sonra parlamentin deputatı, altı il sonra isə baş nazir olub. Və Köçəryana qarşı əlüstü cinayət işi qaldırılıb. Nə daha çoxdur - bayağı qisas, cinayət tərkibi, yoxsa "Rusiyayönlü siysətçi"ni, hələ bir də "Putinin şəxsi dostu"nu (bu isə Ermənistanın "müstəqilliyini" təsdiq etmək baxımından xüsusən "xoşdur") ölkənin siyasi həyatına qatılmaqdan təcrid etmək istəyi? ". Sonda portal yazır ki, baş verənlər bir çox istiqamətlərdə, o cümlədən Qarabağ məsələsində İrəvana baha başa gələcək.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Məlum olduğu kimi, Vyanada "OPEC plus" nazirlərinin 6-cı görüşündə neft hasilatının azaldılmasına dair razılaşmanın müddətinin daha 9 ay uzadılması ilə bağlı razılıq əldə edilib. Belə ki, OPEC və qeyri-OPEC ölkələrinin 2020-ci ilin birinci rübünün sonunadək qüvvədə olacaq qərarına Azərbaycan da qoşulub.**

# OPEC və qeyri-OPEC ölkələrinin son qərarı sabit neft qiymətinə zəmin yaradır

## *İlham Şaban: "Gündəlik neft hasilatını azaltmaq qərarının daha 9 ay uzadılması neft bazarı üçün çox müsbət siqnaldır"*




Qeyd edək ki, "Əməkdaşlıq Bəyannaməsi"nin icrası 2019-cu ilin 1 iyul tarixindən 2020-ci ilin 31 mart tarixinədək nəzərdə tutulub. Ötən ilin dekabrında qəbul edilmiş "Əməkdaşlıq Bəyannaməsi" üzrə "OPEC plus" ölkələrinin kvotaları isə dəyişməz qalır. OPEC keçən ilin dekabr ayında neft hasilatını 2019-cu ilin iyun ayının sonunadək (6 ay) gündəlik 1,2 milyon azaltmaq barədə qərar vermişdi.

Bununla belə, Vyanada "OPEC plus" nazirlərinin 6-cı görüşündə OPEC və qeyri-OPEC ölkələri arasında uzunmüddətli əməkdaşlığa dair Xartiya qəbul olunub. "Əməkdaşlıq Xartiyası"na Azərbaycan da qoşulub. Tədbirdə iştirak edən energetika naziri Pərviz Şahbazov OPEC və qeyri-OPEC ölkələri nazirlərinin budəfəki görüşünü "OPEC plus" əməkdaşlığı çərçivəsində tarixi hadisə kimi qiymətləndirib.

Maraqlıdır, neft hasilatının azaldılmasına dair razılaşmanın müddətinin daha 9 ay uzadılmasına dair qərar neftin qiymətinin sabit qalmasına nə kimi təsir edə bilər? Ekspertlər bunu necə dəyərləndirirlər?

**Sözügedən məsələni şərh edən Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şabanın fikrincə, gündəlik neft hasilatını azaltmaq qərarının daha 9 ay uzadılması neft bazarı üçün çox müsbət siqnaldır:** "Əsasən may ayından sonra İrana qarşı sanksiyalar bazarda qeyri-müəyyənlik yaratmışdı, siyasi gərginlik müşahidə olunurdu. Bu siyasi gərginliyin fonunda qiymətlərdə volatillik artmışdı, bazarda uzun müddət bu cür sıçrayış, enmələr və yaxud artımlar olmurdu. Ona görə bazar iştirakçıları arasında narahatlıq hökm sürürdü. Digər tərəfdən, hasilatın azaldılmasına dair keçən ilin dekabr ayında verilən qərarın yenidən uzadılması ilə bağlı müxtəlif fikirlər səsləndirilirdi. İranın mövqeyi də çox sərtləşmişdi və ortaq məxrəcə gəlmək mümkün olmurdu. Eyni zamanda, dünyada gedən ticarət müharibələri bazarda təzyiqləri artırırdı. Ona görə də qiymətlər gah qalxır, gah da düşürdü".

*"Neftin qiymətinin 60-65 dollar dəhlizində olması həm hasilatçılar, həm də istehlakçılar üçün..."*

İ.Şabanın fikrincə, G20 sammiti çərçivəsində Çin Prezidenti Si Szinpin və ABŞ Prezidenti Donald Trampın görüşünün nikbin başa çatması, Səudiyyə Ərəbistanı və Rusiya liderləri arasında danışıqlarda bazara yönəlik müsbət siqnalların verilməsi sonda neft hasilatını azaltmaq qərarının daha 9 ay uzadılmasına gətirib çıxardı: "Burada Rusiyanın rolunu qeyd etmək lazımdır. Çünki Rusiya Prezidenti Vladimir Putin qeyd etmişdi ki, müddətin 6 ay uzadılmasının elə də əhəmiyyəti yoxdur. Artıq bazarda qiymətlər stabilləşib.

Neftin qiymətinin 60-65 dollar dəhlizində olması həm hasilatçılar, həm də istehlakçılar üçün normal qiymətdir".

***Vidadi ORDAHALLI***

**Tarixən mövcud olan miqrasiya prosesi çağdaş dövrdə daha çox aktualdır və qlobal sosial proseslərə ciddi nüfuz etməkdədir. Beynəlxalq münasibətlər sistemində miqrasiya prosesi və etnik yerdəyişmələr ən problemli, həssas məsələ kimi gündəmdədir.**

# Azərbaycanda əfqan qaçqınlarının sayı artır - yeni təzahür...

## *Azər Allahverənov: "Son zamanlar ölkəyə qaçqın kimi gələn əfqanların sayı artmaqda davam edir"*



Son zamanlar Azərbaycana miqrant kimi gələn əcnəbilərin sayı artır. Açıqlanan statistik rəqəmlərə əsasən, son bir ildə Azərbaycana qaçqım kimi gələnlərin sayı çoxalıb. Bunu BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının (QAK) Azərbaycandakı nümayəndəliyinin xarici əlaqələr üzrə müşaviri Elsevər Ağayev media nümayəndələrinə açıqlamasında deyib. O qeyd edib ki, ümumilikdə, 1096 qaçqın qeydiyyata alınıb: "Azərbaycanda sığınacaq axtaran 848 əcnəbi ilə birlikdə sözügedən təşkilatın mandatı altında gələnlərin ümumi sayı 1944 nəfər təşkil edir. Onlardan 401-i Rusiya (çeçənlər üstünlük təşkil edir), 1206-sı Əfqanıstan, 118-i Pakistan, 70-i İran, 43-ü Suriya və 106-sı digər ölkələrin vətəndaşlarıdır.

Hazırda Rusiyanın 377 vətəndaşı (çeçənlər) Azərbaycan ərazisində qaçqın statusu ilə yaşayır. Onların sayı ildən-ilə azalır. 2014-cü ildə Azərbaycanda Çeçenistandan 586 qaçqın var idi.

Qaçqın kimi tanınan Əfqanıstan vətəndaşlarının sayı 614 nəfərdir (2014-cü ildə bu ölkədən 786 qaçqın olub). Bundan başqa, 46 iranlı (2014-cü ildə 93 nəfər), 15 pakistanlı (137 nəfər), 15 suriyalı (14 nəfər), bir türk (0) və digər ölkələrdən olan qaçqın statuslu 13 nəfər (73 nəfər) var.

Cari il Azərbaycanda sığınacaq axtaran Rusiya vətəndaşlarının sayı 24 nəfərə (2014-cü ildə 25 nəfər), Əfqanıstan - 592 nəfər (179 nəfər), İran - 24 nəfər (13 nəfər), Pakistan - 103 nəfər (131 nəfər), Suriya - 28 nəfər (doqquz nəfər), Türkiyə vətəndaşlarının sayı 23 nəfərə (0), digər ölkələrin vətəndaşları isə 54 nəfərə (34 nəfər) çatıb".

Son bir il ərzində Azərbaycana qaçqın kimi gələn əfqanların sayı artıb. Statistik rəqəmlərdə də qeyd olunur ki, 2019-cu il iyun ayına olan vəziyyətə görə, təqribən 600 Əfqanıstan vətəndaşı Azərbaycandan sığınacaq istəyib.

*"Əfqanıstanda aparılan hərbi əməliyyatlar vətəndaşları yaxşı həyat axtarışı naminə öz ölkələrinin hüdudlarını tərk etməyə məcbur edir"*

**Azərbaycandan sığınacaq almaq istəyən əfqanların sayının artması barədə fikir bildirən miqrasiya məsələləri üzrə ekspert Azər Allahverənov qeyd etdi ki, son zamanlar ölkəyə qaçqın kimi gələn əfqanların sayı artmaqda davam edir:** "Nəzərə almaq lazımdır ki, Əfqanıstanda aparılan hərbi əməliyyatlar vətəndaşları yaxşı həyat axtarışı naminə öz ölkələrinin hüdudlarını tərk etməyə məcbur edir. 600 nəfər artıq həyəcan siqnalıdır".

Ekspertin sözlərinə görə, son 25 ildə Azərbaycana xeyli sayda əfqan gəlib: "Onların əksəriyyəti BMT QAK-ın köməyi ilə üçüncü ölkələrə keçib. Xoşbəxtlikdən İranın Əfqanıstanla sərhədi var və bu, müəyyən səbəblərə görə qaçqınları öz ərazisində saxlayan təbii blok-postdur".

**A.Allahverənov onu da bildirdi ki, Əfqanıstandan qaçqın axınının artması hakimiyyət və taliblər arasında münaqişənin eskalasiyasından asılı olacaq.**

***Günel CƏLİLOVA***

# Azərbaycan tezliklə həm də dərman ixracatçısına çevriləcək - ölkə iqtisadiyyatının yeni artım mənbəyi...

**Xəbər verildiyi kimi, bu il Azərbaycanda iki dərman zavodunun tikilib istifadəyə verilməsi gözlənir. Bu barədə səhiyyə nazirinin müavini Elsevər Ağayev media nümayəndələrinə açıqlamasında deyib. E.Ağayev bildirib ki, bu il zavodlardan birinin açılışının keçirilməsi nəzərdə tutulur.**



## *Pərviz Heydərov: "Ölkəyə valyuta gətirmək üçün yerli dərman istehsalı çox vacib məsələlərdən biridir"*

Zavodlardan biri Rusiya, digəri isə İran şirkəti ilə birgə tikilir: "Zavodlar fəaliyyətə başladıqdan sonra əhalinin ən çox istifadə etdiyi dərman vasitələri istehsal ediləcək".

Azərbaycanın öz dərman zavodunun olması ölkənin bu sahə üzrə tanınmasına səbəb olacaq. Bununla yanaşı, Azərbaycanda dərman istehsal olunması yerli tələbatı təmin etməklə yanaşı, dərmanlar ixrac da edilə bilər. Təbii ki, bu hal ölkə iqtisadiyyatının inkişafına müsbət təsir edər.

**Məsələ ilə bağlı fikir bildirən iqtisadçı-ekspert Pərviz Heydərov "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, dərman sənayesi iqtisadiyyata ən çox gəlir gətirən sahələrdən biridir:** "Onu da qeyd edim ki, dünyada dərman sektoru üzrə inhisarçılıq da mövcuddur. Elə növ dərman var ki, çox məhdud çərçivədə şirkətlər məşğul olur. Bu hal dərman preparatlarının qiymətinin yüksək olmasına səbəb olur. Belə olan halda, ölkəyə idxal olunan dərmanların satış qiyməti yüksək olur".

İqtisadçının sözlərinə görə, Azərbaycanda yerli dərman preparatlarının istehsal olunması təqdirəlayiq haldır: "Nəzərə almaq lazımdır ki, Sovet dönəmində də ölkədə dərman istehsal olunurdu. O zamanlar yaşanan tənəzzül nəticəsində dərman sektoru da fəaliyyətini dayandırdı. İndi isə həm köhnə ənənə bərpa olunar, həm də yeni, müasir dövrün tələblərinə cavab verən dərmanlar istehsal olunar. Beləliklə, ölkədə dərman istehsal olunması yerli tələbatı təmin etməklə yanaşı, dərmanlar xarici ölkələrə də ixrac olunar. Belə olan halda, ölkəyə daxil olacaq valyutanın həcmi artacaq".

### *"Dərman istehsalı, həmçinin, yeni iş yerlərinin açılması deməkdir"*

Həmsöhbətimiz onu da vurğuladı ki, dərman təminatının davamlı, keyfiyyətli, əlçatan olması vacib şərtdir. Ona görə də bir çox ölkələr öz əhalisi üçün dərman istehsal edirlər və hətta xarici bazarlara çıxarırlar: "Ölkəmizə xaricdən dərman idxal olunur və buna çox böyük vəsait xərclənir. Bu vəsaitin ölkədən çıxmasının qarşısını almaq, ölkəyə valyuta gətirmək üçün dərman istehsalı çox vacib məsələlərdən biridir.

Ölkəmizdə dərman istehsal olunsa, külli miqdarda vəsaitin xaricə axmasının qarşısı alınar. Həm də ölkədə keyfiyyətli, ucuz, təminatlı dərmanlar istehsal olunacaq və onu xarici bazarlara ixrac etmək mümkündür. Dərman istehsalı, həmçinin, yeni iş yerlərinin açılması deməkdir".

***Günel CƏLİLOVA***

# Azərbaycan tekstil mallarının ixrac coğrafiyasını genişləndirir - sırada Avropa ölkələri var

**Tekstil sənayesi yüngül sənayenin ən əsas sahələrindən biridir. Dünyanın qədim sənaye sahəsi olan tekstildəki dəyişikliklər 18-ci əsrdə İngiltərədə sənaye inqilabına gətirib çıxarıb. Uzun illər boyu tekstil sənayesi Avropa və Asiyanın inkişaf etmiş ölkələrində, həmçinin, ABŞ-da iqtisadiyyatın aparıcı sektoru olub.**



## *Fuad İbrahimli: "Bu sahə üzrə dünya bazarında rəqabət güclüdür"*

Lakin 20-ci əsrdə onun ÜDM-də və iqtisadiyyatdakı rolu getdikcə azalmağa başlayıb, əsrin ikinci yarısında isə uzunmüddətli durğunluq dövrü yaşayıb. 21-ci əsrin əvvəllərindən isə bu sahədə yenidən canlanma yaranıb, lakin onun əvvəlki rolunu bərpa etməsi mümkün görünmür.

Hazırda ümumdünya tekstil, geyim və geyim aksessuarları istehsalının illik həcmi 4 trilyon dolları ötməkdədir. Bunun böyük bir hissəsi Asiyada istehsal olunur. İstifadə olunan xammala əsasən tekstil sahəsi bir neçə yerə bölünür: pambıq, yun, ipək, kətan, kimyəvi saplardan toxunan və trikotaj. Ötən əsrdən etibarən tekstil sənayesində kimyəvi xammalın rolu artmağa başlayıb. Belə ki, dünya tekstil sənayesi hər il 45 milyon ton civarında əsas xammaldan istifadə edir ki, bunun da təxminən 50 faizi sintetik və süni liflərin, 45 faizi pambığın, 4-5 faizi ipək, yun və digərlərinin payına düşür. Dünyada illik parça istehsalı 100 milyard kvadratmetrdən çox təşkil edir ki, bunun da 50 faizə yaxını Asiya ölkələrində reallaşır. Bu gün inkişaf etmiş ölkələr bahalı brend məhsulların istehsalı üzrə, Asiyanın inkişaf etməkdə olan ölkələri isə kütləvi tələbat məhsullarının istehsalı üzrə ixtisaslaşıb.

Azərbaycanda tekstil sənayesi müstəqillik dövründə ciddi tənəzzül yaşayan sahələrdən biridir. Halbuki, XIX əsrin sonunda Zaqafqaziyada ən böyük pambıq parça fabriki və Azərbaycanda ilk tikiş fabriki Bakı şəhərində yaradılıb. 1913-cü ildə Azərbaycanda 300 ton xam ipək, 22 min ton pambıq mahlıcı, 4 min ton yun istehsal edilib ki, bu da ümumrusiya istehsalının müvafiq olaraq 79 faiz, 10 faiz və və 2 faizinə bərabər olub.

Qeyd edək ki, Sovet dövründə də bu sahə xeyli inkişaf etdirilib. 1925-ci ildə Gəncədə mahud fabriki istifadəyə verilib. Tut bağlarının salınması və baramaçılığın inkişafı sayəsində Azərbaycanda ipək sənayesi formalaşıb və ipəkçiliyin mərkəzi iqlim şəraitinə görə Şəki şəhəri seçilib. 1931-ci ildə burada ipək kombinatı fəaliyyətə başlayıb.

Daha sonra "Sumqayıt Toxucu", H.Z.Tağıyev adına Toxuculuq tikiş kombinatı, "Mingəçevir Toxucu", "Gəncə Toxucu", "Şəki-tikiş", "Bakı Toxuculuq Qalantereya", "Sumqayıt Xovlu İplik", "Puta-Əyirici", "Şəki Toxucu Xırdavat", "Bakı Toxucu", "Bakı Tekstil Fabriki", "Bakı Tikiş Evi", "Bakı Toxucu-Tikiş", "Bakıxanov Trikotaj kimi müəssisələr yaradılıb. Müstəqillik illərində bu müəssisələrin böyük əksəriyyəti özəlləşdirilib, fəaliyyətini dayandırıb. Hazırda Bakı Tikiş Evi və "Şəki-ipək" fəaliyyət göstərməkdədir.

2015-ci ildən bəri Azərbaycanda tekstil sahəsinin inkişafına yönəlik addımlar atılmaqdadır. Belə ki, tekstil məhsullarının Şimali Avropa ölkələrinə ixracı da gündəmdədir. "Alpar" və "Banu" ticarət markaları ilə ixrac olunan Bakı Tekstil Fabrikinin məhsullarının sorağı tezliklə Birləşmiş Ərəb Əmirliklərindən gələcək. Belə ki, Birləşmiş Ərəb Əmirliklərindən fabrikə əməkdaşlıq və ixracla bağlı müraciət daxil olub.

### *"Azərbaycanın tekstil məhsulları qonşu ölkələrlə yanaşı, Avropa ölkələrinə də ixrac olunur"*

Tekstil sənayesinin təbii xammal bazası olan pambıq istehsalının artırılması üçün genişmiqyaslı tədbirlər görülür. Hazırda Azərbaycanın tekstil məhsulları dünyanın bir sıra ölkələrinə ixrac olunur. Məlumatlara görə, Azərbaycan bir neçə ildir Rusiya, Ukrayna, Belarus, Türkiyə və İrana tekstil malları ixrac edir.

Bundan başqa, təzəlikcə Avropa ölkələrinə tekstil mallarının ixracına başlanıb. Belə ki, Portuqaliyaya illik 60-100 ton həcmində 100% pambıq iplik göndərilir. Böyük Britaniya, Polşa və Estoniya ilə ixraca dair razılıq əldə edilib. Estoniya üzərindən Azərbaycana məxsus tek-

**Azərbaycanın tekstil sektorunun ixrac coğrafiyasının daha da genişləndirilməsinin əhəmiyyəti barəsində danışan iqtisadçı-ekspert Fuad İbrahimli qeyd etdi ki, vacib sənaye sahələrindən biri də tekstil sənayesidir:** "Azərbaycanda bunun üçün yetərincə xammal var. Çünki hökumət baramaçılığın, ipəkçiliyin və pambıqçılığın inkişafına böyük diqqət ayırıb. Yaxşı olar ki, ölkəmizdə istehsal olunan bu xammalları son məhsula çevirərək dünyanın dörd bir yanına ixrac edək. Bunun üçün imkanlarımız böyükdür. Azərbaycanın iqlim şəraiti imkan verir ki, istənilən məhsulu istehsal edib dünya bazarına çıxaraq. Bunun üçün də müəyyən qədər vaxt lazımdır".

Həmsöhbətimizin sözlərinə görə, Azərbaycanın tekstil məhsulları artıq xarici ölkələrə ixrac olunur: "Sevindirici haldır ki, yüngün sənayenin tekstil sektorunda inkişaf yaşanır. Yaşanan inkişaf sayəsində dünyada Azərbaycanın tekstil məhsullarına tələbat artır. Beləliklə, tekstil məhsullarımız artıq Avropa ölkələrinə də ixrac olunur".

**İqtisadçı bildirdi ki, tekstil sənayesi elə bir sahədir ki, bu sektorda daim rəqabət var. Bu sahə üzrə dünya bazarında rəqabət güclüdür. Qardaş Türkiyənin dünya bazarında tekstil sənayesi üzrə böyük üstünlükləri var. Azərbaycanda da yüngül sənayenin inkişafı üçün imkanlar var. Tekstil sahəsində də "Made in Azerbaijan" brendinin yaradılmasına ehtiyac var.**

***Günel CƏLİLOVA***

# Azərbaycanda övladlığa verilmə mexanizmi dəyişdirilir

## *Əhməd Qəşəmoğlu: "Övladlığa götürmə ilə bağlı hazırlanan yeni qaydaları, mexanizmi təqdir edirəm, bunun çox böyük faydası olacaq"*

**Övladı dünyaya gətirmək hələ valideyn olmaq deyil. Elə insanlar var ki, onlar dünyaya gətirdikləri övladlarına sahib dura bilmirlər, həmin uşaqlar uşaq evlərində, internatlarda, bəziləri isə baxımsız vəziyyətdə küçələrdə böyüyür. Bu da gizlin deyil ki, hər insanda valideynlik hissi mükəmməl deyil.**

Beləlari uşaqların yalnız bioloji valideyni sayıla bilər. Uşaqla bioloji əlaqəsi olmayan insanlar da var ki, onlar uşaqlara, sözün əsl mənasında, analıq, atalıq edirlər.

Uşaq evlərində və internatlarda böyüyən uşaqların övladlığa verilməsi ənənəsi artıq çoxdan mövcuddur. Uzun illərdir Azərbaycanda da bu prosedur həyata keçirilir. Amma övladlığa verilmə mexanizmi əvvəllər elə də mükəmməl olmadığı üçün, bu sahədə ciddi problemlər mövcud idi. Artıq Azərbaycanda övladlığa götürmə mexanizmi dəyişdirilir və təkmilləşdirilir. Bu sahədə mövcud olan problemlərin həll olunması üçün övladlığa götürmə sahəsində yeni qaydalar müəyyənləşib. Belə ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində yeni sistem yaradılacaq və namizədlər xüsusi imtahan verdikdən sonra onlara uşaqlar övladlığa veriləcək. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) Əlillik siyasəti şöbəsinin müdir müavini Fərhad Ələkbərovun sözlərinə görə, övladlığa uşaq götürmək istəyən şəxslər hərtərəfli test ediləcəklər. "Yeni övladlığa götürmə modelinin əsas xüsusiyyətlərindən biri odur ki, valideyn namizədlər ƏƏSMN-də yaradılacaq alt sistemdə qeydiyyatdan keçəcəklər. Bundan sonra sosial işçilər valideyn namizədlərin evlərində müsahibələr təşkil edəcək, mənzil şəraitini yoxlayacaqlar".

Onun sözlərinə görə, o mərhələdən uğurla keçən valideyn namizədlər DOST mərkəzlərinin təşkil etdiyi təlimlərdə iştirak edəcəklər: "Bu təlimlər övladlığa götürmənin əhəmiyyətinin artırılması ilə bağlı valideyn namizədlər üçün olan psixoloji-sosial əhəmiyyətli testlərdir. Valideyn namizədlər həmin təlimlərdən keçdikdən sonra imtahanlarda iştirak edərək qiymətləndiriləcəklər.



*"Kimsə övladlığa uşaq götürmək istəyirsə və buna onun sağlamlığı, psixi vəziyyəti imkan verirsə, lakin maddi vəziyyəti, şəraiti imkan vermirsə, bu halda onlar övlad götürə bilməyəcəklər"*

Müəyyən keçid balından uğurla keçən valideyn namizədlər növbəti mərhələyə buraxılacaqlar.

F.Ələkbərov, eyni zamanda, qeyd edib ki, indiki qanunvericilikdə 10 yaşına çatmış şəxslərin övladlığa götürülməsi ilə bağlı razılığı tələb olunur. Bu tələb yenə də qüvvədə qalacaq: "Eyni zamanda, 7 yaşına çatmış uşaqların övladlığa götürülmə zamanı fikirləri, rəyləri nəzərə alınacaq. Bundan əlavə, övladlığa götürmə prosesində uşaqların yerləşdiyi müəssisədə valideyn namizədlərlə uşaqların görüşü təşkil olunacaq. Orada həmin uşaqların valideyn namizədlərlə uyğunluğu yoxlanılacaq, sosial işçilər onları müşahidə edəcəklər. Uşaqlar valideyn namizədlərlə uyğundurlarmı, onlara öyrəşə, mehribanlaşa bilirlərmi, ailə mühiti çərçivəsində onlarla birlikdə yaşaya biləcəklərmi və s. yoxlanılacaq.

Eyni zamanda, valideyn namizədlərin də hansı uşaqları övladlığa götürmək istəmələrinə dair tələbləri nəzərə alınacaq. Uşaqların də rəyi əvvəldən öyrəniləcək, onlar necə ailədə, şəhərdə, yoxsa kənddə, ailə mühitində və ya bir valideynlə yaşamaq istəyirlər, bunlar nəzərə alınacaq. Təbii ki, erkən yaşda olan uşaqların bu cür istəkləri olmur, çünki onların özlərini dərketmə qabiliyyətləri hələ müəyyən qədər aşağı olur. Müəyyən yaşdan sonra isə uşaqların öz fikirləri, istəkləri olur".

**Tanınmış sosioloq, professor Əhməd Qəşəmoğlu "Bakı-Xəbər"ə bildirdi ki, övladlığa götürmə ilə bağlı yaradılacaq yeni mexanizmin böyük faydası olacaq.** "Övladlığa götürmə ilə bağlı hazırlanan yeni qayadaları, mexanizmi təqdir edirəm, bunun çox böyük faydası olacaq. Yeni qaydalara görə, övladlığa uşaq götürmək istəyənlərin test edilməsi, onların hərtərəfli yoxlanılması müsbət nəticə verəcək. Bu şəxslərin yalnız psixoloji vəziyyəti, sağlamlığı deyil, eyni zamanda, onların sosial vəziyyəti, yaşadığı şərait də yoxlanacaq. Bu olduqca əhəmiyyətli məsələdir. Kimsə övladlığa uşaq götürmək istəyirsə və buna onun sağlamlığı, psixi vəziyyəti imkan verirsə, lakin maddi vəziyyəti, şəraiti imkan vermirsə, bu halda onlar övlad götürə bilməyəcəklər. Çünki övladlığa götürülən uşaq hərtərəfli təmin edilməlidir. Uşaqlar onlardan bütün mənalarda valideynlik qayğısı görməlidirlər. Nazirliyin tətbiq edəcəyi yeni mexanizm övladlığa götürmə sahəsindəki mövcud problemlərin aradan qaldırılmasına səbəb olacaq. Azərbaycanda övladlığa götürmə ilə bağlı qaydaların bu cür müəyyən edilməsi çox müsbət haldır. Namizədlər imtahandan uğurla keçə bilsələr, övlad sahibi ola biləcəklər".

Ölkəmizdə övladlığa götürmə ilə bağlı əvvəllər bir sıra problemlərin mövcud olduğunu deyən Ə.Qəşəmoğlu hesab edir ki, 7 yaşdan yuxarı uşaqların övladlığa verilərkən rəylərinin öyrənilməsi məsələsi də çox effektiv olacaq. "Bizdə övladlığa götürmə sahəsində bir sıra problemlər vardı. Bəzi imkanlı insanlar gedib uşaq evlərinin rəhbərləri ilə danışıb, rüşvət müqabilində uşaqları övladlığa götürürdülər. Bu da övladlığa götürülən müəyyən uşaqlar üçün elə də asan olmurdu. Onların istismar edilməsi, incidilməsi kimi hallar da vardı. Bilirsiniz ki, belə uşaqlar yeni valideynlərinin dözülməz münasibətindən bezərək evdən qaçıb yenidən internata qayıdırdılar. Bu kimi xoşagəlməz halların mövcud olması gizlin deyil. Hətta Azərbaycan uşaqlarını xaricilər də övladlığa götürürdülər, biz o uşaqların taleyindən xəbərsiz olurduq.

Ancaq yeni yaradılacaq mexanizm bütün bu problemlərin aradan qalxmasına səbəb olacaq. Uşaqlar o adamlara övladlığa veriləcək ki, doğrudan da onlarda valideynlik hissi olacaq" - deyə Ə.Qəşəmoğlu vurğuladı.

***İradə SARIYEVA***

**Xalq sənəti növləri xalqların mədəniyyətinin əsas xəttini təşkil edir. Zəngin mədəniyyətə malik olan Azərbaycanda xalq sənəti tarixən inkişaf edib və müxtəlif sənət növləri sənətkarlar tərəfindən yaşadılıb. Bu gün Azərbaycanda dövlət səviyyəsində xalq sənətinin inkişafı və sənətkarların bu sənəti yaşatması üçün hər cür şərait yaradılır.**

# UNESCO-nun 43-cü sessiyası xalq sənəti növlərimizin də Dünya İrs Siyahısına salınma yollarını açdı...

## *Ənvər Çingizoğlu: ”Belə bir festivalın keçirilməsi doğrudan da böyük əhəmiyyətə malikdir”*




## *”... erməni təxribatına verilən ən güclü cavabdır”*

Dünyada öz yeri olan Azərbaycanda tarixən mövcud olan xalq sənətinin bütün növlərinin yaşadılması, təbliğ edilməsi, gənclərə öyrədilməsi ənənəsi davam etdirilir. Bu günə kimi xalq sənətinin təbliği istiqamətində müxtəlif satış-sərgilər keçirilib. Bu da xalq sənətinin təbliğinə xidmət etməklə yanaşı, həm də bu sahə ilə məşğul olanlara stimulverici təsir göstərib.

İyulun 3-də Azərbaycanda ilk dəfə Respublika Sənətkarlıq Festivalı başlayıb. İyulun 7-də başa çatacaq festival UNESCO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyası çərçivəsində təşkil olunub.

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə baş tutan festivalda respublikamızın paytaxt və regionlarından olan sənətkarların iştirakının təmin olunması məqsədilə sənətkarlığın müxtəlif istiqamətləri ilə peşəkar səviyyədə məşğul olan ustalar dəvət edilib. Tədbir beynəlxalq təcrübə nəzərə alınaraq, insanların daha rahat gəlmələri üçün açıq səma altında, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının qarşısındakı meydanda, Nizami küçəsində təşkil edilir. Tədbir festival-yarmarka və karnaval formasında keçirilir.

Festivalın keçirilməsi üçün 40 müxtəlif formalı örtüklü, müasir tərtibatlı və hər birində 2-3 sənətkarın öz işlərini sərgiləyəcəyi stendlər quraşdırılıb. Tədbirdə Bakı və Sumqayıt şəhəri, habelə Abşeron yarımadasının digər yerlərində fəaliyyət göstərən təxminən 60 sənətkar, bölgələrdən 40-a yaxın sənətkar dəvət edilib.

Tədbirin keçirildiyi ərazidə informasiya-məlumat mərkəzləri yaradılıb. Festival ərəfəsində əl işlərinin marketinqi sahəsində müasir, innovativ üsulların istifadəsi, həmçinin, milli dəyərlərin yaşadılması istiqamətində mütəxəssislərin və sənətkarların iştirakı ilə konfrans keçirilib (Milli Kitabxanada). Festivalda gənc nəslə, ziyarətçilərə əl işləri sənətinin texnologiyasının öyrədilməsi, nümayiş etdirilməsi məqsədilə "master klub" qurulub və ustad dərsləri təşkil ediləcək. Yeni əl işləri sənəti nümunələrinin təqdim olunması və onlara dəstək göstərilməsi üçün "wall art" və "street art" üçün şərait yaradılıb.

Festivalın cəlbediciliyinin artırılması üçün "şəhərcik" plan-quruluşundan istifadə edilir. Belə ki, uyğun və ya yaxın sənətkarlıq istiqamətləri eyni stenddə yerləşdirilir və bu stendlər simvolik olaraq sənətkarlıq kəndini, qəsəbə və məhəlləsini formalaşdıracaq. Beləliklə, festivalı ziyarət edən şəxslər "xalçaçılar kəndi", "dulusçular məhəlləsi", "misgərlər qəsəbəsi" və s. ilə tanış olmaq imkanı əldə ediblər.

Festival barədə kitabçalar və kataloqlar nəşr olunacaq, iştirakçılar diplomlarla təltif ediləcəklər. Festivalda uğurla iştirak edən, əl işlərinin keyfiyyəti və aktuallığı ilə seçilən sənətkarların xarici ölkələrdə keçirilən beynəlxalq sərgi-yarmarkalarda, habelə digər tədbirlərdə iştirakına köməklik göstərilməsi nəzərdə tutulur.

UNESCO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyası çərçivəsində təşkil olunan I Respublika Sənətkarlıq Festivalının əhəmiyyətini vurğulayan etnoqraf Ənvər Çingizoğlu "Bakı-Xəbər"ə bildirdi ki, bu festival Azərbaycanın sənətkarlıq irsinin təbliği baxımından çox əhəmiyyətlidir. Bu festivalın keçirilməsinin təsadüfi hal olmadığını deyən etnoqrafın sözlərinə görə, Azərbaycanın ənənəvi xalq sənəti növlərinin bu şəkildə təbliği bizə imkan verəcək ki, gələcəkdə onların müəyyən bir hissəsini UNESCO-nun müvafiq siyahılarına daxil edək. Kəlağayı, Lahıc misgərlik sənətləri kimi şedevrlərimizin UNESCO-da yer aldığını deyən Ə.Çingizoğlu qeyd etdi ki, Bakı sessiyasının gedişində I Sənətkarlıq Festivalının keçirilməsi ilə bağlı verilən qərar çox müsbətdir. Bu gün Azərbaycanda mövcud olan və özündə böyük tarixi dövrü əhatə edən xalq sənəti növlərinin dünya ictimaiyyəti üçün maraq kəsb etdiyini deyən Ə.Çingizoğlunun sözlərinə görə, Azərbaycan sənətkarlarının əl əməyi UNESCO rəsmilərinin və sessiya iştirakçılarının da diqqətini çəkəcək. "Bakı sessiyasının gedişində belə bir festivalın keçirilməsi doğrudan da böyük əhəmiyyətə malikdir. Bu, Azərbaycanın sahib olduğu qədim və zəngin, eyni zamanda, bənzərsiz mədəniyyətinin təqdim edilməsi deməkdir. Xalq sənətinin təqdimatı baxımından bu festival çox faydalı olacaq. Festivala gələnlər burada öz gözləri ilə müxtəlif xalq sənəti növlərinin necə yarandığının şahidi olacaqlar. Bilirsiniz, Azərbaycan xalqı yaradıcı xalq kimi tarixdə öz sözünü həmişə deyib, deməkdə də davam edir. Xalqımızın elə qədim yaradıcılıq nümunələri, sənət növləri var ki, onların dünyada analoqu yoxdur. Bu sənət növləri o qədər rəngarəngdir ki, orada xalqımızın bütün ruhu, əhval-ruhiyyəsi, mənəviyyatı, məişət mədəniyyəti əksini tapıb. Xalqımızın dəyərli sənət növləri neçə min il bundan əvvəl yaranaraq formalaşmağa başlayıb. Bəşər sivilizasiyasının elə bir dövrü yoxdur ki, həmin çağa aid materiallardan sənət əsərləri yaradılmasın. Daş, tunc, mis və sair dövrlərdən başlayaraq Azərbaycan ustaları müxtəlif sənətkarlıq nümunələri ərsəyə gətiriblər. Təbii ki, bundan əvvəl daş mədəniyyəti dövrünün elementləri daş alətlərin hazırlanmasında, sənətkarlıq məmulatlarının meydana gəlməsində xüsusi rol oynayıb. Sonrakı mərhələlərdə sənətkarlıq daha da inkişaf edərək özünü çoxçeşidli sahələrdə büruzə verib. Azərbaycan bəşər sivilizasiyasının ilk ünvanlarından biri kimi çox böyük bir mədəni-mənəvi irsə malikdir. Bütün dünya onun bu möhtəşəmliyinə heyran kəsilib". Ə.Çingizoğlu qeyd etdi ki, bu festivalda xalqımızın qədim sənət növləri olan misgərlik, dulusçuluq, ağac oyma, dəmirçilik, xalçaçılıq, ipəkçilik, toxuma, hörmə, sazbəndlik, şəbəkə, sərraclıq, papaqçılıq, həsirçilik, tikmə və s. nümayişi həqiqətən də maraqlıdır. O vurğuladı ki, bu gün, Bakı da daxil olmaqla, Azərbaycanın müxtəlif şəhər və rayonlarında sənətkarlıq mərkəzlərinin yenidən diqqət mərkəzinə gətirilməsi birbaşa dövlətin əməyi sahəsində baş verib. "Şəkidə ipəkçilik, milli mətbəx, İsmayıllıda misgərlik, başqa bir rayonda dulusçuluq, Tovuzda, Gəncədə, Qazaxda sazbəndlik, digər bir bölgəmizdə dəmirçilik, papaqçılıq inkişaf etdirilir. Bundan başqa, sənət növlərimiz də bu inkişafdan kənarda qalmır. Bu gün Azərbaycanın xalq sənətkarları, eyni zamanda, Bakıda fəaliyyət göstərirlər. Hazırda şəhərimizdə sazbənd emalatxanaları, zurna-balaban və digər nəfəs alətləri ustalarının sexləri, xalça sexləri, dulusçu, misgər və s. məkanları öz işini davam etdirir. Papaqçı dükanları da Bakının bir neçə yerində papaq həvəskarlarının ziyarət yerinə çevrilib. Bu gün bu sənətkarların iştirakı ilə festival keçirilirsə, bu o deməkdir ki, Azərbaycanın xalq sənətinin gələcəyi işıqlıdır. Düşünürəm ki, UNESCO-nun Ümumdünya İrs Komitəsinin Bakı sessiyası çərçivəsində I Respublika Sənətkarlıq Festivalının keçirilməsi bizə imkan verəcək ki, xalq sənəti növlərimizi bütövlükdə təqdim edək və daha çox xalq sənəti növümüzün UNESCO-ya daxil edilməsinə nail olaq. Bilirsiniz ki, bizim xalq sənəti növlərimizə iddia edənlər, hətta onları öz adlarına çıxanlar da var.

Bədnam qonşularımız bizim bir sıra xalq sənəti növlərini öz adlarına UNESCO-ya daxil etməyə çalışırlar. Balaban, saz kimi qədim musiqi alətlərimizin ermənilər tərəfindən təxribata məruz qaldığı məlumdur. Ancaq biz buna imkan verməməliyik.

Bu xalq sənəti növlərinin Azərbaycan xalqına məxsus olduğunu hər zaman bu cür festivallarla sübut etməliyik. Əlbəttə, bu festivalın keçirilməsi həm də erməni təxribatına verilən ən güclü cavabdır. Erməni təxribatının qarşısının alınmasında Mədəniyyət Nazirliyinin, xüsusən də Heydər Əliyev Fondunun rəhbəri, ölkəmizin Birinci vitse-prezidenti, UNESCO-nun ölkəmizdəki xoşməramlı səfiri Mehriban Əliyevanın çox mühüm xidmətləri var. Biz UNESCO-da ermənilərin bütün saxtakarlıqlarını ifşa edə bilərik" - deyə etnoqraf bildirdi.

***İradə SARIYEVA***

# Azərbaycan Avropa Oyunlarını ənənəvi dünya idmanı turnirinə çevirməyə nail oldu

**Məlum olduğu kimi, Belarusun paytaxtı Minskdə keçirilən II Avropa Oyunları uğurla başa çatdı. II Avropa Oyunlarında Avropanın 50 ölkəsindən 4 min idmançı medallar uğrunda mübarizə aparıb. Bu yarışlarda ölkəmizi 76 idmançı təmsil edib. Azərbaycan idmançıları oyunlarda, ümumilikdə, 28 medal qazanıb. İdmançılarımızın hesabında 5 qızıl, 10 gümüş, 13 bürünc mükafat var.**




## *Kamal Quliyev: "II Avropa Oyunlarının uğurla keçməsi sübut etdi ki, Azərbaycan yeni idman turniri ənənəsini yaratdı"*

Bütövlükdə, 28 medal qazanan Azərbaycan yarışı 10-cu pillədə bitirib. Ümumilikdə, 200 dəst medala 43 ölkə təmsilçiləri yiyələniblər. Onlardan cəmi 34-ü qızıl medal sevinci yaşaya bilib.

Medal sıralamasına Rusiya başçılıq edir. 4 il əvvəl Bakıda keçirilən İlk Avropa Oyunlarında olduğu kimi, yenə şimallılar birinci olub. İkinci yeri isə yenə meydan sahibləri tutublar. Bu dəfə Belarus bu uğura imza atıb. Ukrayna isə ilk üçlüyü qapayıb. İlk altılıqda növbəti yerləri İtaliya, Hollandiya və Almaniya tutub. Daha üç milli - Gürcüstan, Fransa və Böyük Britaniya da Azərbaycan yığması kimi ilk onluqda qərarlaşıb.

Bütün bunların fonunda, II Avropa Oyunlarının uğurla yekunlaşması və dövlətlərin burada həvəslə iştirakı sübut etdi ki, Avropa Oyunları ənənəvi dünya idmanı turnirlərindən birinə artıq çevrildi. Bununla yanaşı, Azərbaycan yeni idman turniri ənənəsini yaratdı. Nəzərə almaq lazımdır ki, I Avropa Oyunlarının çox uğurla Azərbaycanda keçirilməsi bu baxımdan çox mühüm rol oynayıb. Ekspertlər bunu necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən idman sahəsi üzrə ekspert Kamal Quliyevin sözlərinə görə, II Avropa Oyunlarının uğurla keçməsi və bir sıra ölkələrin bu oyunlarda həvəslə iştirak etməsi sübut etdi ki, Azərbaycan yeni idman turniri ənənəsini yaratdı:** "Birbaşa bunlar bir-birilə əlaqəlidir. Çünki 2015-ci ildə I Avropa Oyunlarının Azərbaycanda möhtəşəm şəkildə keçirilməsi bu məsələdə mühüm rol oynadı.

*"Bunun nəticəsidir ki, Avropanın 50 ölkəsi sözügedən oyunlara böyük həvəslə qatıldı"*

Azərbaycan, faktiki olaraq, yeni idman turniri ənənəsinin əsasını qoydu. O zaman bəziləri iddia edirdilər ki, guya Azərbaycandan sonra bu oyunları keçirən ölkə olmayacaq. Ancaq bu deyilənlər özünü doğrultmadı. Minskdə keçirilən II Avropa Oyunlarının uğurla yekunlaşması göstərdi ki, dünyanın yeni idman turnirinə marağı böyükdür. Bunun nəticəsidir ki, Avropanın 50 ölkəsi sözügedən oyunlara böyük həvəslə qatıldı. Onu da qeyd edim ki, Azərbaycanda ötən illər ərzində yaradılan müasir idman infrastrukturu dünyanın aparıcı ölkələri ilə müqayisə olunacaq dərəcədə üstün səviyyədədir.

**O baxımdan bütün bunlar Azərbaycanın beynəlxalq idman turnirlərində uğurlarını şərtləndirən başlıca faktorlardan biridir. Ölkəmizin uğurla beynəlxalq idman yarışlarına evsahibliyi etməsi yeni imkanlar açır".**

***Vidadi ORDAHALLI***

# Gənclərin vətənpərvərlik ruhu artıb

**Azərbaycanda həyata keçirilən vətənpərvərlik tədbirləri artıq bəhrəsini verməkdədir. Qətiyyətlə demək olar ki, sözügedən tədbirlər gənclərin vətənpərvərlik hissinin yüksəlməsində müstəsna rol oynayıb. Məhz görülən işlərin nəticəsidir ki, hazırda hər bir Azərbaycan gənci Vətənə xidmət etməyi özünə şərəf borcu hesab edir.**




## *Onlar Vətəni şərəflə qorumağa hazırdırlar*

Buna baxmayaraq ölkədə fəaliyyət göstərən vətəndaş cəmiyyətləri və müvafiq dövlət qurumları analoji tədbirlərini davam etdirməkdədir. Çünki nəsil dəyişdikcə gənclərin dünyagörüşü, düşüncə tərzində sapmalar baş verir ki, belə halların qarşısının alınması üçün vətənpərvərlik tədbirlərinin davam etdirilməsinə ehtiyac duyulur. Elə bu məqsədlə də Nəsimi rayonunda "Vətənin müdafiəsinə hazıram" adlı təntənəli tədbir keçirilib. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası vətəndaşlarının 2019-cu ilin iyul ayının 1-dən 30-dək həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmətdən hərbi qulluqçuların ehtiyata buraxılması" haqqında 03 iyun 2019-cu il tarixli, 1218 saylı Sərəncamının icrası ilə bağlı Nəsimi rayon İcra Hakimiyyətinin Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti ilə birgə "Vətənin müdafiəsinə hazıram" tədbiri baş tutub. Tədbir rayon rəhbərliyinin, ictimaiyyət nümayəndələrinin, hərbi xidmətə yola salınan gənclərin və onların valideynlərinin iştiraki ilə reallaşıb. Əvvəlcə tədbirdə marş sədaları altında Azərbaycan Respublikasının Dövlət Bayrağı zala gətirilib, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və şəhidlərin ruhu 1 dəqiqəlik sükutla yad edildikdən sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.Tədbirdə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin birinci müavini general-mayor Zaur Abdullayev Silahlı Qüvvələrinin keçdiyi tarixi yoldan, müasir, müstəqil ölkəmizdə Silahlı Qüvvələrin formalaşmasında və güclənməsində Ulu Öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin xidmətlərindən danışıb.Tədbirdə çıxış edən Nəsimi rayon İcra Hakimiyyətinin Başçısı Asif Əsgərov bidirib ki, ordu hər bir dövlətin və xalqın təhlükəsizliyinin qarantıdır. Müasir dünyamızda baş verənlər təsdiqləyir ki, güclü ordusu olmayan dövlətlər müstəqil siyasətlərini həyata keçirməkdə çətinlik çəkirlər. Bir həqiqət var ki, bütün diplomatik danışıqların arxasında güclü ordu dayanır. Odur ki, Ümummilli Liderimiz Heydər Əliyev güclü ordunun yaradılmasını dövlətin başlıca vəzifələrindən biri hesab edərək bu sahəni xüsusi nəzarətə götürmüş və qısa müddət ərzində çox böyük işlərin görülməsinə nail olmuşdur.Bütün sahələrdə olduğu kimi ordu quruculuğu sahəsində də Möhtərəm Prezidentimiz cənab İlham Əliyev Heydər Əliyev siyasi kursunu davam etdirərək hərbi sahəni daim diqqət mərkəzində saxlayır. Möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin gündəlik diqqət və qayğısının nəticəsidir ki, bu gün Azərbaycan Ordusu regionun ən qüdrətli ordusuna çevrilmişdir. Ən müasir hərbi texnika, silah - sursatla təchiz olunmuş Azərbaycan Milli Ordusu istənilən anda Ali Baş Komandanın əmri ilə torpaqlarımızı işğaldan azad etməyə qadirdir və bunu 02 aprel 2016-cı ildə keçirilən hərbi əməliyyatlar zamanı bir daha sübut etmişdir. Nəsimi rayon İcra Hakimiyyətinin Başçısı Asif Əsgərov çıxışına davam edərək bildirib ki, bu gün orduda maddi texniki təchizatla yanaşı əsgərlərimizin döyüş ruhu və nizam - intizam olduqca yüksək səviyyədədir. Tarixi həqiqətdir ki, Dövlət - Xalq - Ordu birliyi əsgər və zabitlərin döyüş ruhunu artırır.

Tez - tez İcra Hakimiyyətinin rəhbərliyi və rayon ictimaiyyətinin nümayəndələri cəbhə bölgələrində olaraq əsgərlərimizlə görüşlər keçirirlər. Çıxışının sonunda natiq hərbi xidmətə yola salınan gənclərə vətənimizi şərəflə qorumağı arzulayıb. Tədbirdə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin birinci müavini general-mayor Zaur Abdullayev və Nəsimi rayon İcra Hakimiyyətinin Başçısı Asif Əsgərov həqiqi hərbi xidmətə yola düşən çağırışçılara xatirə hədiyyələri təqdim ediblər. Tədbir hərbi vətənpərvərlik mahnılarının mahir ifaçısı Şəmistan Əlizamanlının ifasında mahnılar, 2 nömrəli Uşaq Gənclər İnkişaf Mərkəzi kollektivinin və "AMAROK" rəqs qrupunun rəngarəng rəqsləri ilə davam etmiş, Dədə Qorqudun hərbi xidmətə yola düşən çağırışçılara xeyir-duaları ilə başa çatıb. Qətiyyətlə qeyd etmək olar ki, artıq respublikanın bütün bölgələrindən olan gənclərimiz könüllü şəkildə hərbi xidmətə can atırlar. Bu fakt isə gənclərin hərbi-vətənpərvərlik ruhunun yüksək səviyyədə olduğunun göstəricisidir.

***Alim***

**Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyilə ABUİB-in həyata keçirdiyi "Azərbaycançılıq və hərbi vətənpərvərlik ideyalarının təbliği" layihəsi çərçivəsində çap olunur.**

# Saç əkimi üçün həkimə üz tutanlar arasında narazılar çoxalır - peşmanlıq, ya...

## *Aynurə Həsənova: "Hemofiliya xəstələrinə, qanın laxtalanmasında problem yaşayanlara, immun sistemi ilə bağlı keçəlliyi olanlara saç əkimi tətbiq edilə bilməz"*

**Bu gün nəinki Azərbaycanda, hətta bütün dünyada ən ciddi problemlərdən biri saç tökülməsi ilə bağlıdır. Bu hal həm qadınlar, həm də kişilər arasında müşahidə olunur. Xüsusən də kişilər keçəlləşmədən ciddi əziyyət çəkirlər. Çoxlarımız hesab edirik ki, həddindən artıq bahalı şampunlarla, müxtəlif maskalarla saçımızı keçəlləşmədən xilas edə bilərik.**

Lakin illərin təcrübəsi bunun faydasız olduğunu sübut edir.

Bu gün saç tökülməsini böyük problem hesab edən insanlar müasir tibbin nailiyyətlərindən yararlanaraq saç əkdirirlər. İllər əvvəl saç əkdirmək bir xəyal olsa da, bu gün gerçəkliyə çevrilib. Keçəlləşməni özünə kompleks sayan insanlar öncəki dövrlərdə əsasən pariklərdən, şinyonlardan istifadə edirdilər. Onların parik taxdığı isə dərhal nəzərə çarpırdı, bu da sözsüz ki, həmin insanlarda diskomfort yaranmasına səbəb olurdu.

Bu gün dünyanın müxtəlif ölkələrində olduğu kimi, Azərbaycanda da saç əkdirənlər kifayət qədərdir. Əvvəllər şou-biznes nümayəndələri, səhnə adamları saç əkdirməyə meyl göstərirdilərsə, indi sadə vətəndaşlar da saç əkdirmək üçün mütəxəssislərə müraciət edirlər. Məsələ burasındadır ki, bir çox hallarda saç əkimləri müəyyən kabinetlərdə, özəl klinikalarda həyata keçirilir. Sirr deyil ki, bəzən bu işlə təsadüfi adamların da məşğul olduğunu görürük. Belələrinin xidmətindən yararlanmaq sözsüz ki, pasiyentə həm maddi, həm bioloji, həm də psixoloji cəhətdən mənfi təsir göstərir. Bəzən şikayətlər eşidirik ki, baha qiymətə saç əkdirmə proseduru qəbul edən şəxslər bu işi həyata keçirən həkimdən narazılıq edirlər. Onlar deyirlər ki, saçım həkimin dediyi müddətdə bitmədi, əksinə, məndə keçəlləşmənin sahəsi bir az da böyüdü. Bu iddialara da az rast gəlmirik.

Qeyd edək ki, artıq türkiyəli mütəxəssislər pasiyentlərə təsadüfi adamların xidmətindən yararlanmamağı tövsiyə edirlər. Türkiyəli həkimlər xəbərdarlıq edirlər ki, pasiyentlər saç əkimi üçün kabinetlərə deyil, xəstəxanalara müraciət etməlidirlər. Sirr deyil ki, hazırda sağlamlıq turizminin mühüm sahələrindən biri də saç əkimidir ki, insanlar saç əkdirmək üçün müxtəlif ölkələrə üz tuturlar və bu da həmin ölkələrin büdcəsinə kifayət qədər xeyir verir.

Türkiyəli mütəxəssislər bildirirlər ki, xəstəxanalardan kənarda saç əkimi elə də faydalı olmur. Onlar qeyd edirlər ki, əksər hallarda digər yerlərdə edilən prosedurlar effekt verməyə bilir. Bu cür uğursuz əməliyyatların isə fəsadları çox olur. "Xüsusən də belə əməliyyatlar uğursuz icra olunduqda ilk fəsadları məhz baş dərisində görmək mümkündür" - deyə türkiyəli mütəxəssislər vurğulayırlar.

Mütəxəssislərin sözlərinə görə, bu prosedur zamanı baş dərisinə ən çoxu 3.5-4 min tük əkmək mümkün olur.

Qeyd edək ki, son illər Azərbaycanda da saç əkimi prosedurunu həyata keçirən klinikalar, kabinetlər mövcuddur və bu klinikaların bəzilərində fəaliyyət göstərən həkimlərin isə heç də hamısı bu sahədə peşəkar deyil.

Mütəxəssislər vurğulayırlar ki, saç tökülməsinin və keçəlliyin səbəbləri müxtəlifdir və 98 faiz hallarda bu, genetik faktorla bağlıdır.

Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasının saç əkimi cərrahı Rəşad Əliyevin fikrincə, normal insanın başında 120 min tük follikulu var. O, gün ərzində 100-150 tükün tökülməsinin adi hal olduğunu deyib. Cərrah saç əkiminin təxminən yarım əsrdir icra olunduğunu bildirməklə yanaşı, bu üsulun ilk dəfə Koreyada tətbiq olunduğunu, lakin yunanlar tərəfindən inkişaf etdirildiyini qeyd edib. "Bizə də müasir inkişaf forması çatıb. Saç əkiminin iki növü var: fut və fue. Fut üsulundan başın ənsə nahiyəsindən dəri kəsib götürülür. Bu prosesin mənfi cəhəti götürülən hissədə çapıq izinin qalmasıdır və estetik olaraq problem yaradır. Bu gün dünyada daha çox istifadə olunan fue üsuludur. Bu zaman saç kökləri tək-tək götürülərək başqa nahiyəyə əkilir. Həm qadınlara, həm də kişilərə tətbiq olunan bu metodun üstün cəhəti çapıq izinin qalmamasıdır. Bu zaman insanların gündəlik həyata qayıtması da daha tez olur. Bu üsulun tətbiqi də ağrısızdır, yerli keyləşdirmə ilə həyata keçirilir. Əməliyyatdan sonra dərman qəbul edilmir. Əkilən yerdə isə tüklər daha yaxşı inkişaf edir. Qadınlarda və kişilərdə tətbiq üsulları nisbətən fərqlənir. Qadınlar saçlarını tam qırxdırmadıqlarına görə fuemtab metoduna üstünlük verilir. Bu zaman əkilən saçlar tökülmür və onlara 70 il zəmanət verilir".

### *"Azərbaycanda saç əkimi sahəsində qeyri-peşəkarlara rast gəlməmişəm"*

Trixoloq-həkim Aynurə Həsənova isə "Bakı-Xəbər"ə bildirdi ki, saç əkiminin həyata keçirilməsi çətin bir prosesdir və burada pasiyentdən də çox şey tələb olunur. Onun sözlərinə görə, o, Azərbaycanda bu sahədə hələ qeyri-peşəkara rast gəlməyib. Xəstələrin şikayətinə gəlincə, mütəxəssis qeyd etdi ki, çox zaman pasiyentlər həkimlərin qoyduğu qaydalara riayət etmək istəmirlər. O bildirdi ki, saçlar əkildikdən altı həftə sonra tökülür və iki ay sonra yenidən çıxmağa başlayır. Əkilən saçın 50 faizi altı ay ərzində çıxır. Tam inkişaf etməsi üçün ideal zaman 10 aydır. Keçəl insanlarda bəzən proses iki dəfə icra olunur. Orqanizmdən asılı olaraq, saçın çıxması prosesi ləngiyə və ya tezləşə bilər. Elə pasiyent var ki, əkilən saçın yarısı beş aydan sonra çıxır. Bəzilərində isə bu müddət ərzində saçın yalnız 30 faizi çıxır. Amma bu, son nəticələrə təsir etmir. Yəni əkilən saçların hamısı inkişaf edir və tədricən müsbət nəticə əldə olunur. Ölkəmizdə bu işlə peşəkarlar məşğul olurlar. Azərbaycanda saç əkimi sahəsində qeyri-peşəkarlara rast gəlməmişəm" - deyə bildirən mütəxəssisin sözlərinə görə, elə insanlar var ki, onlarda müxtəlif xəstəliklər olduğu üçün, onlar üçün saç əkimi proseduru həyata keçirilmir. Bəzən pasiyentlərin bunu nəzərə almaq istəmədiyini qeyd edən A.Həsənovanın bildirdiyinə görə, pasiyentlər bütün hallarda mütəxəssisləri başa düşməlidirlər. "Elə adamlar var ki, onlarda olan xəstəlik saç əkilməsinə imkan vermir. Məsələn, hemofiliya xəstələrinə, qanın laxtalanmasında problem yaşayanlara, immun sistemi ilə bağlı keçəlliyi olanlara saç əkimi tətbiq edilə bilməz. Bunu mütəxəssislər tətbiq etmirlər. Odur ki, belə insanlar saç əkimi üçün müraciət etməsinlər. Bilirsiniz, bəzən pasiyentlər həkimin qoyduğu müddəti gözləməyib saçlarının daha tez bir vaxtda çıxmasını istəyirlər. Halbuki, saç əkdirənlərin saçları qoyulan müddət ərzində bitməlidir. Bəzən pasiyentlər saçlarının gec gəlməsindən narahat olduqları üçün narazılıq edirlər. Amma bunun öz müddəti var" - deyə mütəxəssis qeyd etdi.



*"Pasiyentlər saçlarının gec gəlməsindən narahat olduqları üçün narazılıq edirlər"*

Bildirək ki, mütəxəssislərin dediyinə görə, bir çox kişilər həyatının müəyyən dövründə saç tökülməsi problemi ilə qarşılaşır və bu vəziyyət yaş artdıqca artır. İyirmi yaşın sonlarında 12 faizə yaxın kişi saç tökülməsi problemi ilə üzləşir. Əlli yaşında kişilərin genetik tökülmə və keçəlliklə müxtəlif dərəcələrdə qarşılaşma nisbəti 50 faizdir. Saç tökülməsinin psixoloji təsiri kişilərdə fərqlidir. Bəzi kişilər saç tökülməsinə əhəmiyyət vermir, bəziləri üçün ən yüngül saç azlığı iş və sosial həyatda çətinlik yaradır.

Bəzi mütəxəssislər qeyd edirlər ki, saç əkimi cərrahi bir üsuldur və hər cərrahi üsulun bir risqi də var. Onların bildirdiyinə görə, uyğun şərtlərlə cərrahi bir əməliyyat edilərsə, təbii ki, risq də aşağı enəcək. Bu əməliyyatdan sonra pasiyentin bir neçə saat dincəlməsi kifayət edir.

***İradə SARIYEVA***

№ 116 (4014) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

4 İYUL 2019-cu il

www.baki-xeber.com

# Dünyanın qızılla zəngin ən varlı ölkələri...

**Dünya Qızıl Şurası ən çox qızıl ehtiyatına sahib ölkələrin siyahısını açıqlayıb. "Milli.Az" həmin siyahını təqdim edir.**



Amerika Birləşmiş Ştatları: 8.133,5 ton. Almaniya: 3.377,9 ton. IMF (Beynəlxalq Valyuta Fondu): 2.814,0 ton. İtaliya: 2.451,8 ton. Fransa: 2.435,8 ton. Çin: 1.842,6 ton. Rusiya: 1.615,2 ton. İsveçrə: 1.040,0 ton. Yaponiya: 765,2 ton. Hollandiya: 612,5 ton. Türkiyə: 564,8 ton. Hindistan: 557,8 ton. Avropa Mərkəzi Bankı (ECB): 504,8 ton. Çin: 423,6 ton. Portuqaliya: 382,5 ton. Səudiyyə Ərəbistanı: 322,9 ton. Böyük Britaniya: 310,3 ton. Livan: 286,8 ton. İspaniya: 281,6 ton. Avstriya: 280,0 ton. Qazaxıstan: 254,7 ton. Belçika: 227,4 ton. Filippin adaları: 196,3 ton. Venesuela: 188,9 ton. Əlcəzair: 173,6 ton. Tayland: 152,4 ton. Sinqapur: 127,4 ton. İsveç: 125,7 ton. Cənubi Afrika: 125,3 ton. Meksika: 120,6 ton. Liviya: 116,6 ton. Yunanıstan: 112,8 ton. Koreya: 104,4 ton. Beynəlxalq Ödənişlər Bankı BIS: 104,0 ton. Rumıniya: 103,7 ton. Polşa: 102,9 ton. İraq: 89,8 ton. Küveyt: 79,0 ton. Avstraliya: 79,9 ton. İndoneziya: 78,1 ton. Misir: 75,6 ton. Braziliya: 67,2 ton. Danimarka: 66,5 ton. Pakistan: 64,5 ton. Argentina: 56,8 ton. Finlandiya: 49,1 ton. Belarus: 43,6 ton. Boliviya: 42,5 ton. Bolqarıstan: 40,3 ton. İordaniya: 38,3 ton.

## TƏBRİK!



Bir sevgi dənizidi
Günəşdi, aydı Dərya.
Allahdan əta olan
Ən şirin paydı Dərya.

Arzuları gül açsın,
Ürəyində dil açsın
Gülüşü könül açsın,
Bahardı, yaydı Dərya.

Gözəl bir mələkdi o,
Bir dəstə çiçəkdi o.
Hamıdan göyçəkdi o
Ulduzdu, aydı Dərya.

Bu gün qəzetimizin baş redaktoru Aydın Quliyevin nəvəsi Dərya balanın ad günüdür. Gözəl-göyçək Dəryanı ad günü münasibətilə atası Sahil bəy, anası Zümrüd xanım, babaları Aydın müəllim, Firdovsi müəllim, nənələri Səadət xanım, Aida xanım, əmisi Ramil, dayısı İlkin, bibisi Leyla, xalası Gülnur, qardaşı Nurman və bibisi oğlu Emil ürəkdən təbrik edir, Dərya balaya can sağlığı, uzun ömür, gözəl günlər, xoş gələcək arzu edirlər.

Dəryanı təbrik edənlər sırasına "Bakı-Xəbər" ailəsi də qoşulur.

Əziz Dərya balamız, doğum günün mübarək olsun!

## Elan

Həsənova (kecmis Hüseynova) Nigar Aydın qızına məxsus, Bakı şəhəri, Yasamal rayonu, Mirzə İbrahimov küçəsi, ev 13, mənzil 4 ünvanına verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

Puri-Əskər Səkinə Məhərrəm qızının adına, Bakı şəhəri, Suraxanı rayonu, Hövsan qəsəbəsi, Oqtay Şabanov küçəsi, ev 507 D ünvanına məxsus çıxarış itdiyi üçün etibarsız sayılır.

## Azərbaycanda 25 min manata satılan mobil telefon nömrəsi...

**Dünyada mobil telefon nömrələrinin gözqamaşdırıcı qiymətə satılması təcrübəsinə tez-tez rast gəlinir. Məsələn, bir neçə il əvvəl 666-66-66 nömrəsi Qatarın paytaxtı Doha şəhərində yerli telekommunikasiya şirkəti tərəfindən satışa çıxarılmış və 10 dəqiqəlik hərrac zamanı 2 milyon 750 min dollara satıldı.**

Satışdan əldə edilən gəlir yerli xeyriyyə fonduna və Qatar əhalisinə tibbi xidmətin göstərilməsi şərtlərinin yaxşılaşdırılmasına yönəldilmişdi. 35 85-85-85-85 nömrəsi isə Çində təşkil olunan internet-hərracda 1 milyon 100 min ABŞ dollarına satılmışdı. Rəqəmlərin bu ardıcıllığı çin dilində "Qoy mən varlı olum, varlı olum, varlı olum, varlı olum" anlamına gəlirdi. 88-88-88-88 nömrəsi isə 285 min ABŞ dollarına Çinin Siçuan əyalətində bir aviaşirkətə satılmışdı. Çində belə hesab edilir ki, 8 rəqəmi uğur, xoşbəxtlik və zənginlik gətirir. Azərbaycanda da "qızıl nömrə" kimi təqdim edilən mobil telefon nömrələrinin öz həvəskarları var. Məsələn, bu günlərdə ölkəmizdə 25 min manata mobil telefon nömrəsi satışa çıxarılıb. "qaynartinfo"nun məlumatına görə, 050 21155 85 nömrəsinin qiyməti məhz bu qədərdir. Qeyd edək ki, Azərbaycanda əksər iri məmurların və iş adamlarının mobil telefon nömrəsi nəyə görəsə, bir qayda olaraq, 211-lə başlayır. Bu rəqəmlərlə başlayan nömrələr arasında 14 min manata (050 211 58 56) satılan da var, 15 min manata satılan da (050 211 59 69). 050 211 16 21 nömrəsini isə 10 min manata almaq olar. Lakin sadəcə 211-lə başlayan telefon nömrələrinin qiyməti görənləri şoka salmır. Məsələn, 050 200 9292 nömrəsinə sahib olmağı arzulayanlar 6 min, 050 291 1111 nömrəsini almaq həvəsinə düşənlər 6500 manat, 050 200 00 60 nömrəsini əldə etmək istəyənlər isə 13 min manatından keçməlidirlər. Yeri gəlmişkən, Qatarda 2 milyon 750 min dollara satılan mobil telefon nömrəsi (666 666 66 - 055-lə başlayır) vaxtilə Azərbaycanda da satışa çıxarılmışdı: özü də 100 min manata! Lakin həmin nömrə üçün bu qədər yüksək qiymətə müştəri tapılıb-tapılmadığı məlum deyil. Onu da deyək ki, insanların maddi dəyəri fantastik məbləğlə ölçülən mobil telefon nömrələrinə həvəslə pul ödəməsini psixoloqlar daha çox özünütəsdiq cəhdi kimi qiymətləndirirlər. Hesab edirlər ki, həyatda başqa cür uğur qazana bilməyənlər belə dəbdəbəli, lakin dəbdəbəli olduğu qədər də anormal seçimlərə meyllənirlər...





**Qoç** - Günün ilk yarısından etibarən məhsuldar işləməyə çalışın. Mürəkkəb, birmənalı olmayan işlərin öhdəsindən gələ bilərsiniz. İşdə rəhbərliklə təmaslarda, həmkarlarınızda münasibətlərdə sayıq olun.



**Buğa** - Bol şanslar və imkanlar vəd edən gündür. İntuisiyanızı işə salın. Cari işlərin və rutin məsələlərin öhdəsindən gəlmək üçün bir qədər qətiyyətli olmalısınız. İradəli və ötkəm olun.



**Əkizlər** - Hadisələrin axarı və proseslər əhvalınıza da təsir edəcək. Həllini gözləyən məişət problemləri var. Maliyyə öhdəliklərinizi unutmayın. İşdə və münasibətlərdə soyuqqanlı olun.



**Xərçəng** - Yaxın ətrafınızdakı insanların maraqlarının sizin mənafelərinizlə ziddiyyət təşkil edəcəyinə hazır olun. Fəaliyyətinizdə qarşı tərəfin istəklərini də nəzərə alın. Eqoizm işlərin ziyanınadır.



**Şir** - Günün ilk yarısından etibarən intensiv işləməli olacaqsınız. Bununla belə, qüvvənizi və imkanlarınızı olduğundan artıq sayaraq həllini bacarmayacağınız problemin çözümünü vəd etməyin.



**Qız** - Günün ilk yarısından bütün işləri planlaşdırmağa çalışmayın. Proseslərin məcrası gözləntilərinizi alt-üst edə bilər. Çətin vəziyyət sizi ruhdan salmamalıdır. Əhvalınızda stabillik yoxdur.



**Tərəzi** - Ailə və məişət qayğılarının öhdəsindən asanlıqla gələ bilərsiniz. Fəaliyyət arealında qayda yaradın. Planlarınızı nizamlayın. İdefikslərə aldanmayın, illüziyaları həqiqət saymayın.



**Əqrəb** - Günün ilk yarısında planları dəqiqləşdirəndən sonra fəaliyyətə başlayın. İşləriniz arasında ən maraqlısını seçərək onu prioritetə çevirin. Vəzifə səlahiyyətlərinin icrası ifrat çətinliklər yaratmayacaq.



**Oxatan** - Praktik olun. Praqmat davranın. Pulunuza qənaət edin. "Qara gün" üçün yığdığınız pulları mənasız işlərə, gərəksiz əşyaların alınmasına sərf etməyin. Sabahı düşünün, çünki maliyyə stabilliyi hər an pozula bilər.



**Oğlaq** - Günün ilk yarısı ən əlverişli zamandır. Tapşırıqları vaxtında yerinə yetirin. Öhdəliklərin reallaşdırılmasını gecikdirməyin. Başqalarının sürəkli məsləhətlərini qulaqardına vuraraq fəal çalışın.



**Dolça** - Huşsuzluq etməyin. Qüvvənizə və potensialınıza qənaət edin. Emosional davranaraq hisslərin əsiri olmayın. Məntiqli addımlar atıb, düşünülmüş qərarlar verin. Günün ikinci yarısında şəxsi münasibətlərdəki problemləri çözün.



**Balıqlar** - Faydalı əlaqələrin sayını və çeşidini artırın. Nüfuzlu insanların dəstəyindən operativ şəkildə yararlanın. Qarışıq vəziyyətdə köməyə ehtiyacınız olacaq. Yeni yolların aranmasını ertələyin.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Misirdə qəribə mumiyalar tapıldı



**Polşalı arxeoloqlar Qahirə yaxınlığındakı Sakkara nekropolu ərazisində onlarla mumiya aşkarlayıblar.**

"Oxu.az" xəbər verir ki, tapıntı Coser ehramının ətrafında qazıntılar zamanı üzə çıxıb. Alimlərin sözlərinə görə, mumiyaların yaşı təqribən iki min ilə çatır. Onların çoxu qumda qazılmış çuxurlarda basdırılıb və mumiyalamanın yalnız əsas mərhələlərini keçib. Mumiyaların ayaqları qədim Misir tanrısı Anubisin təsvirinin olduğu bəzəklə örtülüb. Anubis tamamilə qeyri-adi göy rəngdədir. Hərçənd, onu qara rəngdə təsvir edirdilər. Alimlər bunu onunla izah edirlər ki, inanclara əsasən, tanrıların saçları göy rəngli qiymətli daşdan hazırlanırdı.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: Aydın Quliyev

Baş redaktorun müavini: Tahir Tağıyev

Redaksiyanın ünvanı: Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə

Tel-faks: 510-87-40; 510-87-38; 510-87-39

e-mail: azer22@mail.ru

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır.
(Bazar və bazar ertəsindən başqa).
«BZ»-də çap olunur.

Sifariş: №2514 Tiraj: 3050

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.